RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 19 (8612) CÜMƏ AXŞAMI, 28 yanvar 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Azad olunmuş ərazilərdə inkişafın Azərbaycan nümunəsinin yeni təntənəsi yaşanacaq

## Zəfərimizin müəllifi olan İlham Əliyev Qarabağ bölgəsinin yüksəlişini də təmin edəcək

**Ötən ilin payızında torpaqlarımızın işğaldan azad edilməsi ilə bütün dünya Azərbaycanın döyüş meydanındakı hərbi qələbəsinə şahidlik etdi. Ali Baş Komandan İlham Əliyevin dəmir yumruğu cəmi 44 gün müddətində Ermənistana elə bir zərbə vurdu ki, tarixboyu işğalçılar bunu unuda bilməyəcəklər. Bu zəfərimizə dostlarımız sevindi, bədxahların və erməni təəssübkeşlərinin isə bağrı yarıldı.**

### Qələbə erməni barbarlığını dünyaya olduğu kimi çatdırmağa imkan verdi

İlham Əliyev qələbəmizi sərkərdə qətiyyəti ilə təmin etdi, eyni zamanda Dağlıq Qarabağ məsələsi ətrafında yeni tarixi şərait yaratdı. Bu şərait ondan ibarətdir ki, artıq Dağlıq Qarabağ problemi yoxdur. Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərində ikinci erməni dövləti qurmaq iddiasına birdəfəlik son qoyuldu. Dağlıq Qarabağdakı ermənilərin isə Azərbaycan dövlətinin qanunları ilə yaşamaqdan başqa yolları yoxdur. Beləliklə, həm Azərbaycan dövləti özünün ərazi bütövlüyünü bərpa etdi, həm də Dağlıq Qarabağ problemini özünün milli maraqları çərçivəsində yoluna qoydu.

Torpaqlarımızın işğaldan azad olunmasından sonra dünya başqa bir reallığa da şahidlik etdi. Belə ki, şəhər və kəndlərimiz azad olunduqca əyani şəkildə aydın oldu ki, işğalçı yaşayış məntəqələrimizdə daşı daş üstə qoymayıb. Əslində, Ermənistanın işğal etdiyi ərazilərimizi viran qoyması əvvəldən də məlum idi. Sadəcə, həmin ərazilər düşmənin nəzarətində olduğundan bununla bağlı faktları dünyaya çatdırmaq mümkün deyildi. Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Ağdamın işğaldan azad olunması erməni vandallığını olduğu kimi dünyaya çatdırmağa imkan verdi. Cəbrayıl, Füzuli, Ağdam şəhərlərində, bu rayonların kənd və qəsəbələrində bir yaşayış binası, bir ev belə salamat qalmayıb. Erməni vandalları binaları daşlarına qədər söküb, şəhər və kəndləri xaraba qoyublar.

Düşmən milli-mədəni, tarixi və dini abidələrimizə də qənim kəsilib, dağıda bildiyini dağıdıb, talaya bildiyini talayıb. O cümlədən yeraltı və yerüstü sərvətlərimizi 30 il ərzində qanunsuz şəkildə istismar edib və oğurlayıblar. İşğal altında olan ərazilərimizin gözəl təbiəti də erməni xislətinin qurbanı olub, meşələr, qiymətli ağac növləri kəsilib, tarixi orta əsrlərə qədər uzanan ağaclar məhv edilib.

Bəli, müharibə həm də dağıntı deməkdir. Amma Dağlıq Qarabağ savaşında dağıntıların yeganə müəllifləri erməni işğalçıları oldular. Dağlıq Qarabağ Azərbaycanın tarixi torpaqlarıdır və biz heç vaxt bu ərazini dağıda və ya yandıra bilməzdik. Hətta Şuşanın işğaldan azad olunması əməliyyatında Azərbaycan Ordusu şəhərə maddi ziyan dəyməməsi üçün bütün imkanları səfərbər etdi, hücum zamanı şəhəri ağır hərbi texnikadan, toplardan atəşə tutmadı. Çünki biz Şuşanı dağıda bilməzdik.

Ulu tarixin sübuta yetirdiyi başqa məsələlər də var. Belə ki, tarixboyu müharibə zamanı şəhərləri dağıdanlar, vandallığa yol verənlər, mədəniyyətə qənim kəsilənlər həmişə mədəni şüur səviyyəsi aşağı olan xalqlar olublar. Qədim romalılar onlara "barbar" deyirdilər, Hansı ki onlar Romanı dağıdıb yandırmışdılar. Bu gün isə müharibə, milli, dini, irqi ayrı-seçkilik və aparteid siyasəti yeridənlər, mədəni sərvətləri dağıdanlar da məcazi mənada barbarlar adlandırılır. Bu mənada erməni işğalçıları müasir dövrümüzün barbarlarıdır. Çünki onların Azərbaycana qarşı işğalçılığını və 30 ilə yaxın müddətdə torpaqlarımızda törətdikləri barbarlıqdan başqa bir şey deyil. Tarixi, milli-mədəni və mənəvi abidələrimizi dağıdan, xalqımızın bu torpaqlardakı izini itirməyə çalışan, Azərbaycana qarşı kompleks soyqırımı siyasəti həyata keçirən bir işğalçını başqa cür adlandırmaq da mümkün deyil.

*Ardı 4-cü səh.*

# "Şuşanın bərpası daim mənim nəzarətimdə olacaq və yaxın zamanlarda Şuşa yenə də öz tarixi simasını bərpa edəcəkdir"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı qəbulda çıxış edib.**



### Prezident İlham Əliyevin çıxışı

- Mən sizi Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi vəzifəsinə təyin edirəm. Sizə böyük etimad göstərilir. Əminəm ki, siz bu məsuliyyəti dərk edəcəksiniz və öz işinizlə qarşınızda duran vəzifələrin icrasına çalışıb onları yerinə yetirəcəksiniz. Azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəsi institutu mənim təşəbbüsümlə yanvarın 19-da yaradılmışdır. Birinci təyinat məhz Şuşa rayonuna olan təyinatdır. Bu da təbiidir. Şuşa Azərbaycan xalqının qəlbində xüsusi yerə malikdir. Şuşa Qarabağın tacıdır, Şuşa təkrarolunmaz şəhərdir. Şuşanın yerləşməsi, təbiəti, havası, iqlimi, tarixi abidələri, dini abidələrimiz, şəhərin memarlıq ansamblı bizim milli sərvətimizdir. Şuşanı biz qorumalıyıq, qoruyacağıq. Biz Şuşaya qayıtmışıq və bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaqdır. Necə ki, bütün dövrlərdə Şuşa həmişə Azərbaycan şəhəri olmuşdur və ermənilərin saxtakarlıq cəhdlərinə baxmayaraq, bütün dünya Şuşanı məhz Azərbaycan şəhəri kimi tanıyıb və qəbul edib.

Şuşanın işğal altına düşməsi böyük faciə idi. Hər bir şəhərin, hər bir kəndin, rayonun işğal altına düşməsi böyük faciə idi. Amma Şuşanın işğal altına düşməsi bizim üçün bəlkə də ən ağrılı itkimiz olmuşdur. Təkcə ona görə yox ki, Şuşanın strateji yerləşməsi imkan verirdi ki, bütün bölgəyə, - əgər orada işlər düzgün qurulsaydı, - nəzarət edək, imkan verirdi ki, Şuşanı müdafiə etmək üçün hətta az qüvvələrlə bütün lazımi tədbirləri görək. Şuşanın itirilməsi xalqımız üçün böyük sarsıntı yaratmışdır, mənəvi sarsıntı yaratmışdır və biz 28 il Şuşasız yaşamışıq.

*Ardı 2-ci səh.*

# Portuqaliya Respublikasının Prezidenti zati-aliləri cənab Marselu Rebelu de Souzaya

Hörmətli cənab Prezident!

Portuqaliya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Portuqaliya əlaqələrinin genişlənməsi, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Portuqaliya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2021-ci il*



# İslahatların intellektual tutumu dərinləşir

Prezident İlham Əliyevin "Dövlət sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" bu il yanvarın 22-də imzaladığı Fərman ölkədə aparılan iqtisadi islahatların intellektual idarə edilməsi istiqamətində müasir dünya təcrübəsinə söykənən, postmüharibə və postpandemiya reallıqlarını nəzərə alan vacib sənəddir.

Məqsəd Azərbaycanda aparılan iqtisadi islahatların daha inamla davam etdirilməsi, ölkədəki sənaye parkları, sənaye məhəllələri və aqroparklar sahəsində idarəetməni və nəzarət mexanizmlərini mükəmməlliyə doğru cilalamaq, görülən işlərin səmərəliyini artırmaq, idarəetmə modellərində daha faydalı koordinasiyaya nail olmaqdır.

İqtisadiyyat Nazirliyinin tabeliyindəki "Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin əsasında publik hüquqi şəxs statuslu İqtisadi Zonaların İnkişafı Agentliyinin yaradılmasında isə başlıca məqsəd müasir dünya iqtisadiyyatının sürətlə dəyişən çağırışlarına zamanında reaksiya verməkdir.

*Ardı 6-cı səh.*

# Yumşaldılmış karantin qaydalarına əməl etmək hər bir vətəndaş üçün önəmlidir

Dünyanın bir çox ölkələrini ağuşuna alan COVID-19 pandemiyasının Azərbaycanda geniş yayılmasının qarşısı cidd-cəhdlə alınır, infeksiyaya yoluxma və ölüm hallarının kəskin şəkildə azalması müşahidə olunur.



Ona görə də respublika ərazisində xüsusi karantin rejimi bu və ya digər formada yumşaldılır. Aylardır ki, Azərbaycan dövləti koronavirus infeksiyasının ölkəmizdə yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində Azərbaycanda yaradılmış tibbi infrastruktur, ölkəmizin potensial imkanları pandemiya ilə əlaqədar yaranan çətinliklərin öhdəsindən yetərincə gəlməyə və vəziyyəti nəzarətdə saxlamağa tam imkan verir.

Respublika Nazirlər Kabinetinin sərəncamı ilə "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Srategiyası" təsdiq edilib. Sərəncama əsasən ötən həftənin əvvəllərindən Azərbaycanda koronavirus əleyhinə vaksinasiyaya start verilib. Vaksinasiyanın birinci mərhələsində səhiyyə işçiləri, yaşı 65-dən yuxarı olan şəxslər və hüquq mühafizə orqanlarının əməkdaşları və onlar tərəfindən tədbirlərə cəlb edilənlər peyvənd olunurlar. Artıq səhiyyə müəssisələrinin bir çoxunda peyvəndləmə işi başa çatdırılıb. Kollektivi çox olan xəstəxana və müəssisələrdə bu iş davam etdirilir. Virusa qarşı immun sistemini gücləndirmək üçün bu aksiyada könüllü iştirak edənlər də çoxdur.

Həkim-ekspertlərin açıqlamalarına və rəsmi statistik məlumatlara istinadən deyə bilərik ki, ölkəmizdə bu virus azalmaqda davam edir. Odur ki, Azərbaycanda sərtləşdirilmiş xüsusi karantin rejimi çərçivəsindəki məhdudiyyətlərin daha bir qisminin yumşaldılması ilə bağlı Nazirlər Kabineti yanında Operativ Qərargahın yanvarın 16-da imzaladığı qərar yanvarın 25-indən qüvvəyə minib. Cari il yanvarın 25-indən ölkə ərazisində ticarət obyektlərinin fəaliyyəti (ictimai iaşə obyektləri, kafe, çay evləri və bu kimi məkanlarda müştərilərə yerində xidmət və iri ticarət mərkəzlərinin, "Mall"ların fəaliyyəti istisna olmaqla), habelə bərbərxanaların, gözəllik salonlarının, kosmetik xidmətlərin (o cümlədən bu sahələrdə müştərinin evində və ya digər məkanda xidmət), muzey və sərgi zallarının fəaliyyəti bərpa edilib.

*Ardı 7-ci səh.*




# TAP-ın istifadəyə verilməsi TANAP-ın strateji əhəmiyyətini artırır

**Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) işə salınması ilə "Cənub qaz dəhlizi" tam istismara verildi. Dəhlizin son seqmenti olan TAP Azərbaycan qazını tarixdə ilk dəfə olaraq birbaşa Avropa məkanına çatdırdı.**

Bu xəbəri yeni il ərəfəsində - 2020-ci il dekabrın 31-də aldıq. 2021-ci il yanvarın 6-da ötən ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə Prezident İlham Əliyev "Cənub qaz dəhlizi"nin tam işə düşməsinin böyük əhəmiyyət daşıdığını bir daha vurğulayaraq dedi: "Bir çox ölkələri birləşdirən bu layihə gələcəkdə o ölkələr və digər Avrasiya ölkələri arasında yeni əməkdaşlıq formatının təməlini qoyur. Bu əməkdaşlıq formatı bu gün artıq özünü nəqliyyat sektorunda, ticarət sektorunda göstərir, ondan sonra digər sektorlarda göstərəcək. Biz Avrasiyanın enerji xəritəsini yenidən tərtib etdik. Biz bir-birinə bağlı olan 3500 kilometr uzunluğunda 3 qaz kəmərini inşa etdik. "Şahdəniz-2" layihəsini istismara verdik və artıq Avropa istehlakçıları Azərbaycan qazını alırlar. Bu həm onlar, həm də bizim üçün faydalıdır."

*Ardı 5-ci səh.*

# “Şuşanın bərpası daim mənim nəzarətimdə olacaq və yaxın zamanlarda Şuşa yenə də öz tarixi simasını bərpa edəcəkdir”

Əvvəli 1-ci səh.



Ancaq Şuşa ermənilər tərəfindən dağıdılsa da, əyilmədi, əsirlikdə olsa da, öz ləyaqətini itirmədi, erməniləşdirmə cəhdlərinə məruz qalsa da, Azərbaycan ruhunu qoruyub saxlaya bildi. Biz Şuşaya qayıtmışıq və noyabrın 8-də bu müjdəni Azərbaycan xalqına verərək demişdim ki, Şuşa, sən azadsan! Biz öz tariximizə qayıtmışıq. Əlbəttə ki, Şuşanı bərpa edəcəyik, Şuşanı dirçəldəcəyik və dirçəlmə prosesi artıq başlamışdır.

Ermənilərin bütün cəhdlərinə baxmayaraq, onlar Şuşanı dünyaya erməni şəhəri kimi təqdim edə bilməmişlər. Baxmayaraq ki, 28 il ərzində buna çalışmışdılar, bir çox xarici qonaqları qanunsuz olaraq Şuşaya gətirmişdilər, Şuşa haqqında uydurmalar ortaya atmışdılar, Şuşanın adını dəyişdirmişdilər. Amma buna baxmayaraq, heç kim buna inanmırdı. Çünki Şuşaya gələn hər bir insanın fikri ondan ibarət idi və hər bir insan öz gözü ilə görürdü ki, Şuşanın memarlıq ansamblı Azərbaycan memarlıq məktəbini təcəssüm etdirir. İndi qədim tarixi saxtalaşdırırlar, indi saxta kitablar yazdırırlar, simpoziumlar, tədbirlər keçirirlər. Amma bu nisbətən yaxın tarixdir. Şuşanı quran, Şuşa şəhərini salan bizim əcdadımız Pənahəli xan olmuşdur. Məhz onun fəaliyyəti, səyləri nəticəsində Şuşa şəhəri salınıbdır. Ondan əvvəl Pənahəli xan Bayat qalasını, Şahbulaq qalasını salmışdır. Təsadüfi deyil ki, bu şəhərə verilən birinci ad Pənahabad idi, öz adını vermişdir. Ondan sonra isə Şuşanın təmiz havasını, şüşə kimi havasını nəzərə alaraq bu şəhərə Şüşə, yəni Şuşa adı verilmişdir.

Bu dərəcədə saxtakarlıq ola bilərmi?! Məlumdur ki, işğal dövrünə qədər Şuşa şəhərində daim azərbaycanlılar yaşamışlar. Burada erməni əhalisi, demək olar ki, yox idi. Hətta 1920-ci illərdə bizim torpağımızda Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda Şuşanın əhalisinin əksəriyyəti azərbaycanlılar olmuşdur və işğal dövründə əhalinin 98 faizi azərbaycanlılar idi.

Şuşa bizim tarixi şəhərimizdir və biz bu şəhərə qayıtmışıq. Əgər ermənilər bu şəhəri öz şəhəri hesab edirdilərsə, nə üçün 28 il ərzində bir daşı daş üstə qoymayıblar? Nə üçün Şuşanın tarixi abidələrini qoruyub saxlaya bilməyiblər? Bütün bulaqlar quruyub. Hər bir məhəllədə bulaq olub, birində də su yoxdur. Yaxşı, əgər bu sənin şəhərindirsə, niyə sən bulaqları qurudursan? Bütün tarixi abidələr yerləyeksan edilib. Əgər bu sənin şəhərindirsə, niyə sən bu abidələri dağıtmısan? Əgər sən Ermənistan olaraq bəyan edirdin ki, Şuşanı azad etdiniz, kimdən azad etdiniz? Dinc əhalidən azad etdiniz? Azərbaycanlılardan azad etdiniz? Yaxşı, əgər hesab edirdiniz ki, siz bunu azad etmisiniz, niyə binaları dağıdırsınız? Əgər bu, erməni şəhəridirsə, nə üçün yerləyeksan edirsiniz? Orada təkcə bizim məscidlərimiz yox, bütün binalar dağıdılıb. Sovet vaxtında tikilmiş “Xruşovka”lar deyilən binalar, - hansı ki, Şuşanın memarlıq ansamblını kobudcasına pozur, - qalmışdı, orada da məskunlaşmışdılar. Mən Şuşada olarkən bu dağıntıları öz gözümlə görmüşəm. Elə bil ki, oradan vəhşi qəbilə keçib, vandallar Şuşanı bu günə salıblar. Sonra da deyirlər ki, Şuşa erməni şəhəridir. Bu, növbəti erməni yalanıdır, saxtakarlığıdır! Onların bütün tarixi saxtakarlıq və mifologiya üzərində qurulub. Onlar və onların müxtəlif ölkələrdəki havadarları onlar üçün saxta tarix yaradıblar və bu saxtakarlıq bu gün də davam edir. Baxın, görün erməni nümayəndələri və onların xaricdəki havadarları Şuşanın azad olunması ilə bağlı nələr deyirlər? Guya, Şuşa bizə elə-belə verilib, döyüşlər getməyib, ermənilər Şuşanı tərk ediblər. Ağ yalandır! Şuşa əməliyyatı Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq. Şuşa uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman övladlarımızın əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Şuşanı azad edərkən Azərbaycan əsgər və zabiti qəhrəmanlıq, peşəkarlıq, fiziki güc, yüksək milli ruh göstərib. O, Daşaltı istiqamətindən, digər istiqamətlərdən, sıldırım qayalardan qalxaraq, işğalçıları məhv edərək Şuşanı azad edib, demək olar ki, əliyalın, əlində süngü, bıçaq, yüngül silah topa, tanka qarşı vuruşub. Şuşa əməliyyatında yüzlərlə işğalçı məhv edilib, onların sayını biz bilirik. Ermənistan rəhbərliyi bunu nə qədər öz xalqından gizlətsə də, gizlədə bilməyəcək. Şuşanı müdafiə edən yüzlərlə işğalçını Azərbaycanın qəhrəman övladları məhv edib. Necə demək olar ki, Şuşa bizə bağışlanılıb? İkincisi, belə bir şəhəri kimsə kiməsə bağışlaya bilər? Biz Şuşanı qəhrəman övladların rəşadəti, qanı, canı bahasına düşmənlərin əlindən, əsarətindən almışıq. Bundan sonra Şuşada əbədi yaşayacağıq, Şuşanı qoruyacağıq və qoruyuruq.

Şuşanın 1992-ci il mayın 8-də itirilməsi böyük facie idi. Bu faciənin günahkarları AXC-Müsavat cütlüyüdür. Hamı bunu bilməlidir, heç kim bunu unutmamalıdır. O vaxt Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, o, vaxtkı hakimiyyəti yıxmaq üçün bu təxribatı törətdi, Şuşanı faktiki olaraq düşmənə təhvil verdi. O vaxt Azərbaycan müdafiə naziri AXC-Müsavat cütlüyünün törəməsi idi, onların quyruqlarından idi. Şuşanı satan birinci o olmuşdur. Sonra da demişdi ki, mənim günahım yoxdur. Necə sənin günahın yoxdur, satqın, xain. Demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam. Bu günə qədər də bu gülləni çaxmayıb öz satqın başına. AXC-Müsavat cütlüyü öz çirkin niyyətlərinə çatıb. Şuşa və ondan bir neçə gün sonra Laçın rayonunun işğal altına düşməsi nəticəsində ovaxtkı hakimiyyət kənarlaşdırılıb və hərbi çevriliş nəticəsində AXC-Müsavat hakimiyyətə gəlib. Ondan sonra Şuşanı unudub, Şuşanı faktiki olaraq ermənilərə bağışlayıb və sonra digər xəyanət törədib - 1993-cü ilin aprel ayında Kəlbəcəri düşmənə təhvil verib. Günahsız, əliyalın insanları orada tək qoyub, xilas edə bilməyib, qoruya bilməyib. Ondan sonra da nə edib?! Fərarilik edib, qaçıb. Ali Baş Komandan fərari, dövlət katibi fərari, parlamentin sədri fərari, digər fərarilər qaçıb gizləndilər, biri Kələkidə, biri xaricdə. Əgər müharibə dövründə Ali Baş Komandan qaçırsa, bunun adı fəraridir, başqa adı yoxdur. Hamı bunu bilməlidir, heç kim bunu unutmamalıdır.

Mən demişəm, bir daha demək istəyirəm ki, tariximizin həqiqətə uyğun olması ilə bağlı bizim alimlər, bizim mütəxəssislər gərək dolğun məlumat versinlər, tariximizi malalamasınlar. Bizə saxta tarix lazım deyil. Sovet dövründə nə qədər saxta tarixlə üzləşmişdik. Bizim qəhrəmanlarımız düşmən kimi göstərilirdi. Xalqımızın düşmənləri, qaniçənlər qəhrəman kimi göstərilirdi. 26 Bakı Komissarı - o erməni bolşevik quldur dəstəsi qəhrəman kimi göstərilirdi. Ancaq onlara qarşı vuruşan milli vətənpərvər insanlar düşmən kimi göstərilirdi. Biz bunu görmüşük. Bizim nəsil bunu görüb, saxta tarix nədir. İndi yenə kimsə saxta tarix yaratmaq istəyir. Yenə kimsə hansısa fərarinin, satqının, qorxağın günahlarını yumaq istəyir. Biz buna imkan verə bilmərik. Hər kəs bilməlidir, torpaqları satan kimdir, torpaqları əsarətdən qurtaran kimdir.

Şuşanın qorunması ilə bağlı müvafiq göstərişlər verilib. Azərbaycan hərbçiləri Şuşanı qoruyurlar, ətraf yüksəklikləri nəzarətdə saxlayırlar və saxlayacaqlar. Şuşada komendantlıq yaradılıb və indi isə mülki idarəetmə institutu yaradılır. Bir daha demək istəyirəm ki, sizə böyük etimad göstərilir. Çünki Şuşanın Azərbaycan tarixində xüsusi yeri var və Şuşanın bərpası, dirçəlməsi hamımızın işidir. Əlbəttə ki, bütün işlər planlı şəkildə aparılmalıdır, Şuşanın tarixi siması saxlanılmalıdır, Şuşaya yad olan hər hansı bir tikiliyə yol vermək olmaz. Mən artıq bir müddət bundan əvvəl Şuşaya mütəxəssislərdən ibarət böyük bir qrup ezam etmişdim. Onların arasında siz də var idiniz və vəziyyətlə tanış oldunuz. Bu qrup bir neçə gün Şuşada qalıb, bütün təftiş, təhlil işlərini aparıb və mənə məruzə edib. Şuşanın bərpası bunun əsasında aparılacaqdır.

Eyni zamanda biz, əlbəttə ki, Şuşanın bərpadan sonrakı həyatını da geniş müzakirə edəcəyik. Mən artıq Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan etmişəm. Bərpadan sonra Şuşada həyat qaynamalıdır. İnsanlar qayıdandan sonra Şuşanın çox zəngin mədəni həyatı olmalıdır. Həm ölkə daxilindəki tədbirlər, eyni zamanda bir çox beynəlxalq tədbirlər - festivallar, müsabiqələr, qastrollar orada keçirilməlidir. Yəni Şuşa nəinki Azərbaycanın, əminəm ki, bölgənin mədəniyyət paytaxtı adına layiq olacaqdır.

Təsadüfi deyil ki, bu yaxınlarda qəbul etdiyim iki nümayəndə heyətinin başçısı Şuşaya xüsusi diqqəti dilə gətirib. ISESCO-nun Baş katibi mənimlə görüş zamanı bildirdi ki, onlar təklif edəcəklər ki, Şuşa İslam mədəniyyətinin paytaxtı elan edilsin. Bu, bizi çox məmnun edən bir addımdır. Onu da bildirməliyəm ki, bu günə qədər Azərbaycanın iki şəhəri bu şərəfli ada layiq görülmüşdür - Bakı şəhəri və Naxçıvan şəhəri. Mən xatırlayıram, ISESCO belə qərarı qəbul edəndə bir neçə il əvvəl qərar verilir, ondan bir neçə il sonra artıq o şəhər bu şərəfli ada layiq görülür. Növbə də var, sıra da var. Ona görə belə bir bəyanatın Bakıda səslənməsi xüsusi məmnunluq doğurur. Eyni zamanda bu yaxınlarda Türk Şurasının nümayəndə heyəti ilə görüş əsnasında Türk Şurasının Baş katibi də belə bir təklif irəli sürdü ki, Şuşa Türk dünyasının mədəniyyət paytaxtı seçilsin. Baxın, bu tarixi şəhərimizə türk dünyasında və bütövlükdə müsəlman dünyasında nə qədər böyük maraq var, nə qədər böyük məhəbbət var. Bu, təsadüfi deyil. Ona görə biz, əlbəttə ki, Şuşanın gələcək həyatı ilə bağlı öz addımlarımızı atacağıq. Artıq mən bildirmişəm ki, bu il iki tədbir keçirilməlidir. “Xarıbülbül” festivalı, Vaqif poeziya günləri bərpa edilməlidir. Vaqifin məqbərəsinin bərpası ilə bağlı işlərə start verilməlidir və çalışmalıyıq ki, məqbərə bu il bərpa edilsin. Vaqif poeziya günləri məqbərənin önündə keçiriləcəkdir.

Təbii ki, düşmən Şuşanı talan edib, viran qoyub, dağıdıb. Şuşada olarkən, bu acı mənzərəni seyr edərkən adamın ürəyi ağrıyır. Amma biz bütün infrastruktur layihələrini icra edərək Şuşanı tez bir zamanda bərpa edəcəyik. Bildiyiniz kimi, Şuşaya gediş-gəlişin təşkil edilməsi üçün mənim sərəncamımla yol çəkilir. Füzuli hava limanı inşa edilir və bu ilin sonuna qədər istifadəyə verilməlidir. Ondan sonra beynəlxalq uçuşlar təşkil edilməlidir. Şuşa ilə bağlı indidən müxtəlif ölkələrdə təqdimatlar və sərgilər keçirilməlidir. Siz Azərbaycan Dövlət Turizm Agentliyi və Mədəniyyət Nazirliyi ilə birlikdə bu proqramı işləyin. Dünyanın müxtəlif ölkələrində Şuşanın tarixi, işğal dövrü, bugünkü bərpa işləri ilə bağlı təqdimatı keçirilməlidir. Həm Azərbaycan ictimaiyyəti, eyni zamanda beynəlxalq ictimaiyyət bərpa işlərimizin gedişi ilə bağlı məlumatlandırılmalıdır.

İnfrastruktur layihələrinə gəldikdə, Şuşa infrastruktur baxımından, demək olar ki, tamamilə geridə qalmış bir şəhərdir. Düşmən orada bir daşı daş üstə qoymayıb, bir bina tikməyib. Özləri üçün bir neçə villa tikdirib. Villanın biri o xunta başçısına, biri isə deyilənə görə, Ermənistan rəhbərliyində təmsil olunan zəngin, rüşvətxor məmura məxsusdur. Mənfur düşmən 28 il ərzində orada ondan başqa bir dənə də bina tikməyib. Yollar bərbad, binalar dağılmış, hər tərəf xozanlıq, zir-zibil, çirkin köşklər. Olan-qalanı da dağıdıblar. Bir daşı daş üstə qoymayıblar, ancaq istismar ediblər. Bundan sonra gəlib deyirlər ki, Şuşa erməni şəhəridir, onun adını da dəyişdirməyə cəhd ediblər. Ona görə infrastruktur layihələrinin icrası, əlbəttə ki, birinci məsələdir. Bununla paralel olaraq şəhərsalma işləri düzgün aparılmalıdır. Siz bu təyinata qədər Dövlət Şəhərsalma və Arxitektura Komitəsində işləmisiniz, təcrübəniz var və əminəm ki, bu işlərə rəhbərlik edəcəksiniz.

Tarixi, dini abidələrimizin bərpası ilə bağlı konkret proqram işlənilir. Müvafiq göstərişlər verilib, Heydər Əliyev Fondu bu məsələyə fəal qoşulubdur, eyni zamanda Mədəniyyət Nazirliyi, digər aidiyyəti qurumlar. Yaşayış fondu təftiş edilib. Yaşayış fondunun böyük hissəsi yararsız vəziyyətdədir. İşğal dövründə Şuşada təqribən maksimum 2-3 min adam yaşayırdı. Ermənilər nə qədər çalışsalar da, Şuşanı məskunlaşdıra bilməmişdilər. Halbuki xaricdən gətirilmiş erməniləri orada yerləşdirməklə hərbi cinayət törətmişlər. Bütün bu aksiyalar təbliğat xarakteri daşıyırdı. Orada yaşayanların böyük hissəsi hərbçilər və onların köməkçiləri idi. Yaşayış fondunun təftişi mütləq daha müfəssəl aparılmalıdır, - birinci təftiş aparıldı, - əlbəttə ki, ondan sonra bərpa işləri aparılacaqdır.

Biz Şuşanı dünyanın ən gözəl şəhərlərindən birinə çevirməliyik və çevirəcəyik. Mən bu sözü vermişəm və bu sözümü də icra edəcəyəm. Necə ki əvvəlki dövrlərdə demişdim, biz heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəyik və vermədik. Demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq və qaldırıldı. Demişdim ki, Şuşasız qələbəmiz yarımçıq olacaq və o vaxt müharibə dövründə bundan artığını deyə bilmirdim. Çünki müharibənin aparılmasının məxfiliyi gözlənilməli idi. Müharibənin ilk günlərindən biz bilirdik ki, hədəfimiz nədir və Şuşaya doğru uğurla irəliləyirdik. Əgər müharibənin gedişatına hər bir mütəxəssis nəzər salsa, görər ki, bizim strateji hədəfimiz nə idi. Biz Ermənistan tərəfindən qurulmuş istehkamları yararaq cənub istiqamətindən işğal edilmiş torpaqlara daxil olduq, onları azad etdik və müxtəlif istiqamətlər üzrə əks-hücuma keçdik. Bunun nəticəsində Cəbrayıl, Füzuli, Hadrut, Xocavənd rayonlarının bir hissəsini, Murovdağ yüksəkliyini, Kəlbəcər rayonunun bir hissəsini, Zəngilan, Qubadlı, Laçın rayonlarının cənub hissəsini və Şuşa şəhərini azad etdik. Hədəfimiz Qarabağın tacı olan Şuşa idi və noyabrın 8-də Azərbaycan bayrağı Şuşada qaldırıldı. Ondan sonra düşmən diz çökdü, təslim oldu, ağ bayraq qaldırdı. Biz Kəlbəcər, Laçın, Ağdam rayonlarını bir güllə atmadan geri götürdük. Bizim hədəfimiz Şuşa idi, zəfərimiz də Şuşa oldu. Şuşanın azad olunması günü Zəfər günü elan edildi.

Bu müharibə bir daha Azərbaycan xalqının əyilməz ruhunu göstərdi və bir daha göstərdi ki, nəyi demişəmsə, onu da etmişəm. Təsadüfən demirdim ki, mən bilirəm nəyi, necə, nə vaxt etmək lazımdır. Azərbaycan xalqına kiçik də olsa, siqnal verirdim ki, hər şey yaxşı olacaq. İstədiyimizə nail olacağıq, sadəcə olaraq, hər şeyin vaxtı var. Müharibə dövründə, sadəcə olaraq, bir dəfə Şuşa haqqında demişdim, o da müxbir soruşdu ki, bəs Şuşa nə vaxt alınacaq? Əlbəttə ki, bunu biz deyə bilməzdik, dedim ki, Şuşasız bizim qələbəmiz yarımçıq olacaq. Ancaq heç şübhə etmirdim ki, biz əziz, doğma Şuşamızı erməni əsirliyindən xilas edəcəyik, Azərbaycan bayrağını qaldıracağıq. O vaxt demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq. Bu gün isə deyirəm ki, biz hamımız, bütün xalqımız Şuşanı dirçəldəcəyik!

Bir daha demək istəyirəm ki, sizin üzərinizə çox böyük məsuliyyət düşür. Əminəm ki, siz bu məsuliyyəti dərk edirsiniz və Şuşanın dirçəldilməsi işində öz fəal rolunuzu oynayacaqsınız. Yəqin onu da bilirsiniz və şübhə etmirsiniz ki, Şuşanın bərpası daim mənim nəzarətimdə olacaq və yaxın zamanlarda Şuşa yenə də öz tarixi simasını bərpa edəcəkdir. Sizə uğurlar arzulayıram.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi **Aydın Kərimov** dedi:

- Möhtərəm cənab Prezident, mənə bu etimadı göstərdiyinizə görə Sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Sizin rəhbərliyinizlə müzəffər Ordumuzun şücaəti nəticəsində Şuşa şəhəri işğaldan azad olunandan sonra etdiyiniz tarixi çıxışınızda “Şuşa, biz səni dirçəldəcəyik!” şüarını səsləndirmisiniz. Bu şüar altında quruculuq işlərində iştirak etmək mənim üçün böyük şərəf və eyni zamanda böyük məsuliyyətdir. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan mədəniyyətinin paytaxtı olan Şuşanın planlı və sistemli şəkildə yenidən qurulması, olduqca zəngin tarixi, mədəni irsinin bərpa edilməsi, sakinlərin rahat və əlçatan müasir məxsusi şəhər mühitində yaşamaları üçün qarşımda qoyduğunuz vəzifələrin, bütün tapşırıqlarınızın vaxtında və tələb etdiyiniz səviyyədə yerinə yetirilməsi üçün əlimdən gələni edəcəyəm. Bir daha təşəkkür edirəm, cənab Prezident.

## Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Aydın Zöhrab oğlu Kərimov Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 yanvar 2021-ci il*

## Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyev kollektivə təqdim edilib

**Azərbaycanın yeni nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyev kollektivə təqdim olunub.**

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən bildirilib ki, R.Nəbiyevi kollektivə Prezidentin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov təqdim edib.

***AZƏRTAC***

## Azərbaycanın və Türkiyənin xarici işlər nazirləri arasında telefon danışığı olub

Yanvarın 27-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Nazir Ceyhun Bayramov dəniz quldurlarının hücumuna məruz qalmış gəmi heyətinin öldürülmüş azərbaycanlı üzvünün nəşinin vətənə gətirildiyini qeyd edərək, bu müddət ərzində məsələnin xüsusi diqqətdə saxlanılması, əlaqələndirilmiş şəkildə müvafiq tədbirlərin həyata keçirilməsi və göstərdiyi yardıma görə qardaş Türkiyədən olan həmkarına təşəkkürünü bildirib.

Nazir həmçinin gəmi heyətinin əsir götürülmüş 15 üzvünün taleyi ilə, həyata keçirilən xilasetmə tədbirləri ilə maraqlanıb və sözügedən Türkiyə vətəndaşlarının tezliklə ölkələrinə geri qayıtmalarını arzu edib.

## Milli Məclisin İqtisadi siyasət komitəsinin iclası keçirilib




**Yanvarın 27-də Milli Məclisin İqtisadi siyasət komitəsinin onlayn formatda növbəti iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclası açan komitə sədri Tahir Mirkişili qeyd edib ki, gündəliyə Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin birinci oxunuşda müzakirəsi daxil edilib.

Komitə sədri vurğulayıb ki, Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərin əsas istiqaməti ƏDV-dən müvəqqəti azad olması nəzərdə tutulmuş bir sıra mallar (işlər, xidmətlər) üzrə müddətin uzadılmasıdır. Aksizli mallar üzərində həyata keçirilən aksiz siyasətinin davam etdirilməsi məqsədilə aksizə cəlb olunan məhsullar və aksizli malların dərəcələri ilə bağlı qanunvericiliyə dəyişiklik edilməsi təklif olunub. Eyni zamanda ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi, heyvandarlıq və quşçuluq sənayesinin inkişaf etdirilməsi və xüsusi təhlükəli xəstəliklərin yarada biləcəyi problemlərin qarşısının alınması, zərgərlik fəaliyyətinin inkişafı məqsədilə bir sıra məhsullar üzrə ƏDV-dən azadolma müddətinin uzadılması zərurəti yaranıb.

Onlayn iclasda iştirak edən Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva qanun layihəsinə təklif olunan dəyişikliklərin mahiyyəti barədə geniş məlumat verib. O bildirib ki, Məcəllədə buğdanın, buğda ununun və çörəyin idxalı, satışı və istehsalı 2017-ci il yanvarın 1-dən 4 il müddətinə ƏDV-dən azad edilmişdi. Bu azadolmanın müddəti 2021-ci ilin yanvar 1-də bitir. Layihəyə əsasən, bu mallara tətbiq olunan ƏDV-dən azadolmanın daha 1 il müddətinə artırılması təklif olunur. Həmçinin kəpəyin istehsalı və satışına tətbiq edilən, 2021-ci il mart ayının 1-nə qədər qüvvədə olan azadolmanın heyvandarlıq və quşçuluq sənayesinin inkişaf etdirilməsi məqsədi ilə daha 1 il müddətinə uzadılması nəzərdə tutulub.

Samirə Musayeva qeyd edib ki, sənədə əsasən, ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi, habelə bankın iflas proseduru çərçivəsində aktivlərinin təqdim edilməsinin ƏDV-dən azadolma müddəti 2020-ci il yanvarın 1-də bitib. Bu proseslər hazırda da davam etdiyindən azadolma müddətinin daha 2 il müddətinə uzadılması məqbul hesab edilir. Eyni zamanda publik hüquqi şəxslər tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə bağlanılmış müqavilə əsasında işlərin və xidmətlərin göstərilməsi üzrə ƏDV-dən azadolma müddəti daha 1 il müddətinə artırılır.

DVX-nin rəis müavini zərgərlik sənayesində islahatların aparılması ilə bağlı bu sahədə aparılan azadolmaları da ətraflı izah edib. Qeyd edilib ki, zərgərlik məmulatlarının istehsalı və emalı ilə məşğul olan yerli sahibkarların təşviq edilməsi, zərgərlik və nəqqaşlıq kimi qədim peşələrin inkişafına töhfə verilməsi məqsədilə onların aksizdən azadolma müddətinin daha 3 il artırılması nəzərdə tutulur. Samirə Musayeva bildirib ki, Azərbaycanın uzun illər erməni işğalında olan Kəlbəcər rayonunun işğaldan azad edildiyini və böyük qızıl ehtiyatına malik olduğunu nəzərə alsaq, sözügedən vergi güzəştləri burada mövcud olan qızıl ehtiyatının səmərəli şəkildə istismar olunmasını təmin edə biləcək. O vurğulayıb ki, dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasət çərçivəsində aksiz dərəcələrinin artırılması mərhələli şəkildə nəzərdə tutulur. Bu artırılmanın istehlakçıların alıcılıq qabiliyyətinə təsir imkanları nəzərə alınmaqla, sahibkarlıq subyektlərinin fəaliyyətinə mənfi təsir etməməsi diqqətdə saxlanılır.

Samirə Musayeva çıxışında tütün məmulatlarının aksizli malların siyahısına daxil edilməsi ilə bağlı məlumatları da təqdim edib. Bildirilib ki, bu məhsulların aksiz dərəcələrinin yüksəldilməsi nəticəsində ölkəmizdə ümumi istehlak 2017-ci ilin yanvar-oktyabr ayları üzrə 10 618 080 min ədəd təşkil edirdisə, 2020-ci ilin müvafiq dövrünə görə 8 538 977 min ədədə qədər azalma müşahidə olunub. Tütün məmulatlarının istehsalı və idxalı ilə məşğul olan vergi ödəyicilərinin ödənişləri 2017-ci il üzrə 87 909 200 manat, 2020-ci ilin yanvar-noyabr ayları üzrə 473 554 500 manat təşkil edib.

Bu baxımdan səhiyyə təşkilatlarının tövsiyələri əsasında sağlamlığa zərər verən məhsulların istehlakının azaldılması üçün tütün məmulatlarının istehsalı və idxalı üzrə aksiz dərəcələrinin artırılması, bu məhsulların (trubka tütünü, çəkmə, çeynəmə, sovurma, iyləmə tütünləri, bütün növ qəlyanlar üçün nəzərdə tutulan, qızdırılma nəticəsində istehlak edilən (buxar) tütün məhsulları) aksizli malların siyahısına daxil edilməsi təklif edilib.

Qanun layihəsinin müzakirəsi zamanı çıxış edən komitə üzvləri Ziyad Səmədzadə, Əli Məsimli, Vüqar Bayramov, Anar Məmmədov, Mahir Abbaszadə, İqbal Məmmədov məcəlləyə təklif olunan dəyişikliklər barədə fikirlərini bildiriblər.

Komitə sədri Tahir Mirkişili, DVX-nin rəis müavini Samirə Musayeva, DVX Vergi Siyasəti Baş İdarəsinin rəisi Nicat İmanov, İqtisadiyyat Nazirliyinin şöbə müdiri Elvin Camalov deputatları maraqlandıran suallara aydınlıq gətiriblər.

Ətraflı müzakirələrdən sonra qanun layihəsinin birinci oxunuşda Milli Məclisin plenar iclasına baxılmaq üçün tövsiyə edilməsi qərara alınıb.

Onlayn iclasda komitənin digər üzvləri Ağalar Vəliyev, Məşhur Məmmədov, Rüfət Quliyev, Məzahir Əfəndiyev iştirak ediblər.

# “Azərbaycan-Türkiyə münasibətlərinin gələcək 10 ili” adlı vebinar keçirilib

## Hikmət HACIYEV: “Qarşıdakı onillik və yüzilliklərdə də Azərbaycan-Türkiyə əməkdaşlığı davam edəcək və münasibətlərimiz daha da möhkəmlənəcək”






Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Türkiyənin Siyasət, İqtisadiyyat və Toplum Araşdırmaları Vəqfinin (SETA) birgə təşkilatçılığı ilə “Azərbaycan-Türkiyə münasibətlərinin gələcək 10 ili” adlı vebinar keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirin moderatoru BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev Azərbaycanın zəfər qazanmış bir ölkə olaraq işğaldan azad edilmiş ərazilərinin bərpasına və müvafiq regional layihələrin icrasına başladığını bildirib. Fərid Şəfiyev bu zəfərin əldə olunmasında Türkiyənin müstəsna rolunu qeyd edərək deyib ki, Türkiyə ilə Azərbaycan 30 il ərzində davamlı olaraq hərbi təlimlər keçirib və qələbə təkcə pilotsuz uçuş aparatları hesabına qazanılmayıb: “Türkiyə-Azərbaycan birliyi heç bir ölkəyə qarşı yönəlmir, öz müstəqilliyimizin təminatına xidmət edir”. BMTM-in İdarə Heyətinin sədri onu da əlavə edib ki, iki ölkə həm də elmi sahədə birgə potensialı gücləndirməlidir. O, həmçinin İslam dünyası çərçivəsində iş birliyinin vacibliyini diqqətə çatdırıb.

Daha sonra çıxış edən Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Türkiyə-Azərbaycan əlaqələrinin təməlində xalqlarımızın qardaşlıq münasibətləri, ortaq mədəniyyətimiz dayanır. Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin əbədi olacağını söyləyən Hikmət Hacıyev deyib: “Əminəm ki, qarşıdan gələn onillik və yüzilliklərdə də əməkdaşlığımız davam edəcək və münasibətlərimiz daha da möhkəmlənəcək. Azərbaycan Prezidenti İlham Əliyevin də hər zaman qeyd etdiyi kimi, dünyada bir-birinə tarixi köklərlə, mədəni irsi ilə bağlı olan bir çox başqa dövlətlər də var, lakin onların arasındakı əlaqələr Azərbaycan-Türkiyə münasibətləri qədər nümunəvi deyil. Azərbaycan və Türkiyə prezidentləri tərəfindən həyata keçirilən siyasət qardaş ölkələrimiz arasındakı münasibətləri nümunəvi səviyyəyə çatdırıb”.

Prezidentin köməkçisi qeyd edib ki, qarşımızda dayanan əsas vəzifə xalqlarımızın iradəsindən irəli gələn bu əməkdaşlığın bütün sahələrdə inkişafını təmin etməkdən ibarətdir. 2018-ci ildə Bakının azad olunmasının 100 illiyi münasibətilə hər iki ölkənin prezidentlərinin iştirakı ilə keçirilən hərbi paradın çox böyük rəmzi mənası var idi. Belə ki, 100 il əvvəl Qafqaz İslam Ordusunun sıralarında türk əsgər və zabitləri qardaş Azərbaycana köməyə gəldilər və ölkəmizdə erməni daşnakları tərəfindən törədilən qırğınlara son qoyuldu, Bakı azad edildi. 100 il sonra keçirilən hərbi parad da qardaş ölkələrimizin müdafiə və təhlükəsizlik baxımından da sıx əməkdaşlığının təcəssümü idi.

Hikmət Hacıyev ötən ilin iyul ayında Tovuz döyüşləri və xalqımızın Vətən müharibəsi zamanı qardaş Türkiyənin Azərbaycana verdiyi siyasi-mənəvi dəstəkdən bəhs edərək deyib: “Xüsusilə xalqımızın Vətən müharibəsi müddətində qardaş Türkiyənin mənəvi, psixoloji, siyasi, diplomatik dəstəyi çox önəmli amillərdən idi. Həmçinin qardaş Türkiyə vətəndaşlarının xalqımıza verdiyi dəstək bizi daha da qürurlandırırdı”.

Prezidentin köməkçisi qeyd edib ki, bu gün beynəlxalq münasibətlərdə hər hansı sistemli yanaşma mövcud deyil, beynəlxalq hüququn aliliyi qorunmur. Azərbaycan öz şəxsi təcrübəsində də bunu görüb. Beynəlxalq sülhə və təhlükəsizliyə cavabdeh qurumların fəaliyyətləri səmərə vermir. Azərbaycan işğala son qoymaqla regionda yeni reallıqlar, əməkdaşlıq imkanları yaratdı. Bu xüsusda Azərbaycan və Türkiyənin üzərinə də yeni vəzifələr düşür.

Azərbaycan-Türkiyə əməkdaşlığının regionun və Avropanın enerji mənzərəsinin dəyişdirilməsindəki rolundan bəhs edən Hikmət Hacıyev deyib: “Hesab edirəm ki, Türkiyə regionumuzda davamlı sülhün əldə olunmasında da önəmli rola malikdir. Bu xüsusda Prezident İlham Əliyevin təşəbbüskarı olduğu 3+3 formatını qeyd etmək istərdim. Bu, dövlətlər arasındakı əməkdaşlığı, inteqrasiyanı nəzərdə tutan ideyadır. Əgər Ermənistan Azərbaycana və qardaş Türkiyəyə qarşı ərazi iddialarından əl çəkərsə, onlar da bu prosesin tərkib hissəsi ola bilərlər”.

Vebinarda çıxış edən SETA-nın baş koordinatoru, Türkiyə Respublikası Prezident Administrasiyası, Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü Burhanəddin Duran təmsil etdiyi qurum tərəfindən Qarabağa aid kitabın hazırlanması üzərində iş getdiyini bildirib. O, iki ölkə arasında tarixi və mədəni əlaqələrin gücündən danışaraq bu münasibətlərin Azərbaycanın əldə etdiyi zəfərlə yeni mərhələyə qədəm qoyduğunu vurğulayıb. Burhanəddin Duran qeyd edib ki, “qarayaxma” kampaniyasına baxmayaraq, Türkiyə Vətən müharibəsi zamanı daim Azərbaycanın arxasında olduğunu göstərib.

Sonra çıxış edən SETA-nın xarici siyasət direktoru, Ankara Sosial Elmlər Universitetinin müəllimi Muhiddin Ataman Türkiyənin təkcə müharibə zamanı deyil, ondan əvvəl və postkonflikt dövründə də Azərbaycanın yanında olduğunu diqqətə çatdırıb. O, bu dəstəyin bütün müsəlman ölkələri tərəfindən ifadə edilməsinin vacibliyini qeyd edib.

Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin sədri Araz Aslanlı çıxışında iki ölkənin həyata keçirdiyi regional layihələrdən danışıb və bildirib ki, Trans-Xəzər əməkdaşlığı Azərbaycan-Türkiyə əlaqələrini daha da gücləndirəcək potensiala malikdir.

SETA Təhlükəsizlik Koordinatorluğunun təmsilçisi, Uludağ Universitetinin müəllimi Fərhad Pirinççi qeyd edib ki, Türkiyə-Azərbaycan əlaqələrinin gələcəyi yalnız Qafqaz və ya Qarabağla bağlı olmamalıdır. Bu əlaqələr bütün geosiyasi reallıqlar nəzərə alınaraq daha geniş sahəni əhatə etməlidir.

BMTM-in şöbə müdiri Cavid Vəliyev regional üçtərəfli platformaların vacibliyindən danışaraq deyib ki, Azərbaycan və Türkiyənin iştirakı ilə həyata keçirilən layihələr bütün tərəflərin maraqlarına uyğundur və altı ölkənin əməkdaşlığı şəklində davam edə bilər.

Yaxın Şərq Texniki Universitetinin (OTDÜ) müəllimi Oqtay Tanrısevər Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə əhalinin qayıdışı məsələsinə toxunaraq bildirib ki, bu bölgədə həyatın qayıtması üçün Türkiyənin inşaat sektorunun təcrübəsindən də istifadə etmək mümkündür. Altı ölkənin regional əməkdaşlıq platformasının real olmasını göstərmək üçün çevik işlər görülməlidir.

Vebinar sual-cavab sessiyası ilə davam edib.

# ABŞ şirkətləri işğaldan azad edilmiş ərazilərimizin bərpasında iştiraka hazırdır

ABŞ şirkətləri Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasında iştiraka hazırdır.

İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir Mikayıl Cabbarov ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenbergerlə görüşüb. Görüşdə iqtisadiyyat naziri ABŞ-la iqtisadi, ticarət, sənaye və sair sahələrdə tərəfdaşlığın inkişaf etdiyini qeyd edib.



Nazir M.Cabbarov Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qələbəsini vurğulayaraq işğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı konsepsiyasının hazırlandığını, konsepsiyada dövlət-özəl tərəfdaşlığından geniş istifadənin, həmçinin xarici investorlar üçün xüsusi təşviq proqramlarının, ərazilərin inkişafı üçün xarici şirkətlərin cəlb edilməsinin nəzərdə tutulduğunu bildirib.

Səfir Ö.Litzenberger Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi münasibətilə təbriklərini çatdırıb, regionda dayanıqlı sülhün bərqərar olmasının önəmini vurğulayıb. Səfir ABŞ şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizin bərpasında iştiraka hazır olduqlarını qeyd edib. O, xüsusilə su ehtiyatlarının idarə olunmasında, yol və digər infrastrukturun yaradılmasında, rəqəmsal və innovativ texnologiyalar sahəsində əməkdaşlıqda maraqlarını diqqətə çatdırıb.

Görüşdə iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətləri barədə müzakirələr aparılıb.

# Mədəniyyət naziri Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi ilə görüşüb

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov yanvarın 26-da Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi Jan Batist Lömuan ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan ilə Fransa arasında mədəniyyət sahəsində əməkdaşlıq, bu əlaqələrin perspektivi, həmçinin 2020-ci ilin Vətən müharibəsi və Azərbaycanın işğal edilmiş ərazilərinin azad olunmasından sonra yaranmış vəziyyət barədə fikir mübadiləsi aparılıb.




Anar Kərimov Fransa və Azərbaycan arasında mədəni əlaqələrin mövcud vəziyyəti, iki ölkə mədəniyyətinin qarşılıqlı təbliği ilə bağlı reallaşdırılan tədbirlər, o cümlədən ölkəmizin Fransada həyata keçirdiyi layihələr barədə məlumat verib.

Vətən müharibəsi və müzəffər Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunan ərazilərdə tarixi abidələrin və mədəni infrastrukturun vəziyyəti barədə söz açan nazir qeyd edib ki, Ermənistan 30 ilə yaxın işğal altında saxladığı ərazilərdə Azərbaycanın mədəni irsinə qarşı talan və “təmizləmə” həyata keçirib. Bu ərazilərdə mədəniyyətlə bağlı bütün infrastruktur, eləcə də qəbiristanlıqlar, məscidlər, xristian abidələri və digər məkanlar erməni işğalçı qüvvələri tərəfindən məqsədli şəkildə dağıdılıb.

Dövlət katibi Jan Batist Lömuan qəbula görə təşəkkürünü bildirərək hazırkı səfərin məqsədinin Azərbaycan tərəfi ilə fikir mübadiləsi aparmaq, qarşılıqlı əlaqələrin inkişafı üçün zəmin yaratmaq olduğunu deyib. Qonaq eyni zamanda Azərbaycanın işğaldan azad olunan ərazilərinə UNESCO missiyasının gəlməsi ilə bağlı məsələyə toxunub.

Anar Kərimov bu məsələyə dair hazırda danışıqların davam etdiyini bildirərək, müstəqil ekspertlərdən ibarət UNESCO missiyasının, təşkilatın 1954-cü il Haaqa Konvensiyasına və digər BMT sənədlərinə uyğun olaraq, ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmət çərçivəsində, beynəlxalq hüquqda mədəni mülkiyyət hesab olunan bütün müəssisə və abidələri əhatə etməsi ilə bağlı Azərbaycan tərəfinin mövqeyini diqqətə çatdırıb. Həmçinin missiyanın həyata keçirilməsi üçün təhlükəsizlik baxımından ərazinin öncə minalardan təmizlənməsi və iqlim şəraitinin nəzərə alınmasının vacibliyini qeyd edib.

Nazir eyni zamanda Fransa cəmiyyətində, eləcə də UNESCO tərəfindən bu məsələ ilə bağlı daha çox xristian abidələrinə dair fikirlərin səsləndirilməsinin və həmin ərazilərdə dağıdılmış İslam irsi barədə hər hansı mövqeyin ifadə olunmamasının Azərbaycanda təəssüflə qarşılandığını vurğulayıb. Qeyd olunub ki, dini-etnik mənsubiyyətindən və xarakterindən asılı olmayaraq, işğaldan azad olunan ərazilərdəki və ümumilikdə, ölkəmizdəki bütün inanc yerlərinin, abidələrin qorunması dövlət siyasəti səviyyəsində həyata keçirilir.

Qeyd olunub ki, müxtəlif xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən irəli sürülən “Bakı Prosesi”, Bakıda ənənəvi olaraq keçirilən Dünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərin Sammiti, habelə bir sıra ölkələrdə müxtəlif dini mədəni məkanların bərpa edilməsi ilə bağlı reallaşdırılan layihələr ölkəmizin bu sahədə siyasətinin açıq göstəricisidir.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

# Milli Məclisin İntizam komissiyasının iclası olub

**Yanvarın 27-də Milli Məclisin İntizam komissiyasının iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, yaz sessiyasının başlanması münasibətilə deputatları təbrik edən İntizam komissiyanın sədri Eldar İbrahimov gündəlikdə “Milli Məclisin İntizam komissiyasının 2020-ci ilin yaz və payız sessiyaları dövründə gördüyü işlər barədə” məsələyə baxılmasının nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Komitə sədri qeyd edib ki, COVID-19 pandemiyası ilə əlaqədar yaranmış çətinliklərə baxmayaraq, Azərbaycan parlamenti 2020-ci ilin yaz, növbədənkənar və payız sessiyaları dövründə çox səmərəli fəaliyyət göstərib. Milli Məclisin sədri Sahibə Qafarovanın rəhbərliyi ilə parlamentdə ciddi islahatlar aparılıb, deputatlar həm qanunvericilik sahəsində, həm də ölkənin ictimai-siyasi həyatında diqqətəlayiq işlər görüblər.

Hesabat dövründə İntizam komissiyası öz işini Azərbaycan qanunlarına ciddi riayət etməklə, aşkarlıq və şəffaflıq şəraitində qurub. Komissiyaya daxil olan müraciətlər diqqətlə araşdırılıb və müvafiq tədbirlər görülüb. Həmçinin ötən il Hüquq siyasəti və dövlət quruculuğu komitəsi ilə birlikdə “Azərbaycan Respublikası Milli Məclisinin İntizam Komissiyasının Əsasnaməsi”nin layihəsi hazırlanıb. Həmin sənədin qarşıdakı yaz sessiyasında təsdiqlənəcəyi gözlənilir.

Eldar İbrahimov vurğulayıb ki, 2020-ci ilin ən mühüm hadisəsi son 17 ildə Azərbaycanı sürətlə inkişaf etdirən, ən müasir silahlarla təchiz edilmiş ordu quruculuğuna nail olan Prezident İlham Əliyevin müdrik siyasəti və rəhbərliyi ilə böyük Zəfər qazandığımız Vətən müharibəsi oldu. Qalib ölkənin vətəndaşı kimi həmin qələbə ilə hər bir deputat şərəf və qürur duyur.

Komissiya sədri qeyd edib ki, 44 günlük Vətən müharibəsində Milli Məclis tam tərkibdə çox böyük fəallıq göstərib. İntizam komissiyasının üzvü olan deputatlar da həqiqətin təbliği istiqamətində telekanallarda, KİV-də, sosial şəbəkələrdə, beynəlxalq mediada çox fəal çıxışlar ediblər. Azərbaycan Prezidentinin həmin günlərdə xarici dövlətlərin nüfuzlu media qurumlarına verdiyi müsahibələr Azərbaycan gerçəkliyinin dünya ictimaiyyətinə çatdırılmasında, işğalçı dövlətin ifşasında misilsiz rol oynayıb.

İclasda İntizam komissiyasının ötən il ərzində gördüyü işlər barədə geniş hesabat dinlənildikdən sonra məruzə ətrafında müzakirələr başlanıb. Komissiyanın sədr müavini Fəzail Ağamalı bu hesabatı Milli Məclisin iş təcrübəsində yenilik adlandırıb. Qeyd edib ki, İntizam komissiyasının hesabatının dinlənilməsi VI çağırış Milli Məclisdə həyata keçirilən ilklərdən biridir.

Müzakirə zamanı deputatlar Hikmət Məmmədov, Səttar Möhbalıyev, Madər Musayev, Nəsib Məhəməliyev, Məlahət İbrahimqızı, Nizami Səfərov komissiyanın demokratiya, aşkarlıq və şəffaflıq şəraitində işləməyini, son bir ildəki fəaliyyətini və təqdim olunan hesabatı yüksək qiymətləndiriblər. Bildirilib ki, bundan sonra da hər bir deputat fəaliyyətində və çıxışlarında məsuliyyət hissini rəhbər tutmalı, Azərbaycanın milli maraqlarına xidmət etməlidir.

Komissiya üzvlərinin çıxışlarında bir fikir xüsusi vurğulanıb ki, Azərbaycan Prezidenti və Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış qələbə Azərbaycan tarixində əbədi olaraq qalacaqdır.

Müzakirələrin yekununda İntizam komissiyasının hesabatı məqbul sayılıb.

# Azərbaycan ombudsmanı Metsamor AES-in bütün bölgə üçün potensial təhlükə olması barədə bəyanat yayıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Metsamor AES-in bütün bölgə üçün potensial təhlükə olması barədə bəyanat yayıb.

Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından məlumat verilib.

Bəyanatda deyilir: “Bu yaxınlarda Ermənistan parlamentində Metsamor AES-in radioaktiv tullantılarının hərbi məqsədlər üçün istifadəsi ilə bağlı aparılan müzakirələr bizi ciddi narahat edir. Parlamentin Regional məsələlər və Avrasiya İnteqrasiyası daimi komitəsinin iclasında Ermənistanın ərazi idarəetmə və infrastruktur nazirinin müavini Metsamor AES-də xeyli miqdarda radioaktiv tullantı, həmçinin “sənaye tullantıları” kimi təsnif olunmayan radioaktiv yanacaq istehsal etdiyini söyləyib.

Bundan əlavə, Ermənistanın 30 ilədək müddətdə işğal altında saxladığı Azərbaycan ərazilərini radioaktiv şəkildə çirkləndirməsindən də narahatlıq hissi keçiririk. Azərbaycan Milli Elmlər Akademiyası Geologiya və Geofizika İnstitutu təsdiq edir ki, Metsamor AES-in tullantıları Azərbaycanın Ağdərə və Kəlbəcər rayonlarının ərazisində basdırılması ilə bağlı məlumatlar mövcuddur.

Müddəti bitmiş Metsamor AES yalnız Azərbaycan və Ermənistanın özü üçün deyil, həm də bütün bölgə üçün ciddi təhlükədir. Bundan əlavə, Cənubi Qafqazın zəlzələyə meyilli bölgəsində yerləşməsi onun fəaliyyətini daha da təhlükəli edir. AES-in ətrafında 5 tektonik qırılma var ki, bunlardan biri də stansiyadan cəmi 500 metr uzaqlıqdadır.

Beləliklə, bölgənin bütün ölkələri Çernobıl və Yaponiyanın Fukuşima Atom Elektrik stansiyalarının aqibətini yaşamaq təhlükəsi ilə üz-üzədirlər.

Bir sıra beynəlxalq təşkilatlar da Metsamor AES ilə bağlı narahatlıqlarını vurğulayıblar. 2017-ci ildə Avropa İttifaqının Komissiyasının vitse-prezidenti Federica Mogherini sözlərinə görə, “Aİ Metsamor Nüvə Elektrik Stansiyasının (MNPP) yaratdığı risklərdən tam xəbərdardır. Bu səbəbdən MNPP-nin sürətli bir şəkildə bağlanması və istismardan çıxarılması Aİ və Avropa Qonşuluq Siyasəti Fəaliyyət Planı üçün əsas hədəf olaraq qalır. Çünki bu elektrik stansiyası beynəlxalq səviyyədə tanınmış nüvə təhlükəsizliyi standartlarına cavab verəcək şəkildə təkmilləşdirilə bilməz.”

Ancaq belə görünür ki, Ermənistan stansiyanı bağlamağı planlaşdırmır, əksinə onun fəaliyyəti 2026-cı ilə və ondan sonrakı müddətə uzadılıb.

Metsamor AES-in yarada biləcəyi bütün təhlükələri nəzərə alaraq, Çernobıl və Fukuşimaya bənzər növbəti fəlakətin qarşısını almaq üçün bütün müvafiq beynəlxalq təşkilatları stansiyanın təcili olaraq bağlanması, işinin təhlükəsiz şəkildə dayandırılması və radioaktiv tullantıların Beynəlxalq Atom Enerjisi Agentliyinin “İstifadə olunan Yanacaq İdarəetməsinin Təhlükəsizliyi və Radioaktiv Tullantıların İdarə Edilməsi Təhlükəsizliyi” haqqında Birgə Konvensiyasının, habelə AŞ PA-nın 1588 saylı qətnaməsinin (2007) müəyyən etdiyi tələblərlə uyğun şəkildə ciddi beynəlxalq nəzarət altına alınması üçün təcili tədbirlər görməyə çağırıram”.

# Nigar ARPADARAİ: “Azərbaycan ərazilərində saxlanılanlar “müharibə əsirləri” deyil, diversant və terrorçu qruplardır”

“Ermənistan nümayəndə heyəti üzvünün dediyi “müharibə əsirləri” deyil. Bu şəxslər imzalanmış üçtərəfli atəşkəs razılığından sonra Azərbaycan torpaqlarına soxulmuş və orada terror aktları törətməyə çalışan diversant və terrorçulardır. Onlar ölkəmizin müvafiq qanunu ilə mühakimə olunacaqlar”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri AŞ PA-dakı Azərbaycan nümayəndə heyətinin üzvü Nigar Arpadarai qurumun miqrasiya, qaçqınlar və məcburi köçkünlər komitəsinin iclasında Ermənistan nümayəndə heyəti üzvünün növbəti təxribat xarakterli çıxışına cavab verərək söyləyib.




Azərbaycanlı deputat 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkündən söz açaraq, onların da öz doğma yurdlarına qayıtmasının vacibliyini vurğulayıb. Ancaq Ermənistan 30 illik işğal dövründə Qarabağdakı bütün şəhər, qəsəbə və kəndləri darmadağın etdiyindən, yandırdığından məcburi köçkünlər evlərinə qayıda bilmirlər.

“Azad edilən ərazilərdə bir dənə də dağıdılmamış bina qalmayıb. Xarici jurnalistlər də gördüklərindən dəhşətə gələrək, Ağdam şəhərini “Qafqazın Xirosiması” adlandırıblar. Təəssüf ki, Ermənistan nümayəndə heyətinin üzvü hələ də böhtan xarakterli, aqressiv ritorikanı davam etdirir”, - deyə azərbaycanlı deputat erməni deputatın reallığı əks etdirməyən çıxışının əsassız və böhtan olduğunu vurğulayıb.

Qeyd edək ki, artıq havadarlarının da onları əvvəlki kimi dəstəkləmədiyini görən və bundan daha da qıcıqlanan erməni deputatlar qış sessiyası çərçivəsində, hətta müzakirələrə aidiyyəti olmadığı halda da sərsəm fikirlər səsləndirməkdə davam edirlər. İmzalanmış üçtərəfli atəşkəs razılığından sonra saxlanılmış diversant və terrorçuları müharibə əsirləri kimi təqdim etmək cəhdləri iflasa uğrayır və heç kim tərəfindən dəstəklənmir.



## QARABAĞ dirçəliş yolundadır



# Azad olunmuş ərazilərdə inkişafın Azərbaycan nümunəsinin yeni təntənəsi yaşanacaq



**Zəfərimizin müəllifi olan İlham Əliyev Qarabağ bölgəsinin yüksəlişini də təmin edəcək**

*Əvvəli 1-ci səh.*

### Böyük qayıdış başlayıb

Qarabağın dirçəlişi və işğaldan azad olunmuş ərazilərimizə Böyük Qayıdış isə çoxdan başlayıb. Belə ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasının təməli hələ bir neçə il əvvəl Cəbrayılın Cocuq Mərcanlı kəndinin yenidən qurulması ilə qoyulub. Hələ o zaman bu kiçik kəndin timsalında xalqımız gördü ki, Prezident İlham Əliyev tezliklə bütün torpaqlarımızı işğaldan azad edəcək və həm də onları yenidən dirçəldəcək. Hər birimiz hələ o zaman İlham Əliyevin qələbə və quruculuq əzminin, qətiyyətinin şahidi olmuşduq.

İndi isə bütün azad olunmuş şəhər və rayonlar dirçəliş yolundadır. Hələ müharibənin davam etdiyi günlərdən İlham Əliyevin göstəriş və tapşırıqları ilə azad olunmuş ərazilərdə kommunikasiyaların bərpasına başlanılıb. 2020-ci ilin yekunlarına həsr olunmuş və videoformatda keçirilən müşavirədə yekun nitqini bu mövzu ilə tamamlayan Prezident İlham Əliyev Qarabağ bölgəsində cənnət yaradılacağını bəyan etdi: *"Müharibə cəmi iki aya yaxındır ki, başa çatıb. Amma görün, nə qədər böyük işlər görülüb. Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam".*

İşğaldan azad olunmuş ərazilərdə şəhər və kəndlərin bərpası və yenidən qurulması, elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal, digər zəruri infrastrukturların, mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və digər məqsədlərlə 2021-ci ilin dövlət büdcəsində 2,2 milyard manat vəsait ayrılıb.

### Dünya xalqımızın quruculuq əzminin şahidi olacaq

Yanvarın 4-də isə Prezident İlham Əliyev "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında Fərman imzalayıb. Fərmanda qeyd olunur ki, otuz ilə yaxın bir müddət ərzində erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş ərazilərimizin yenidən həyata qaytarılması ölkənin siyasi-iqtisadi suverenliyinin güclənməsinin mühüm dayaqlarından biri olacaq: *"Azərbaycan iqtisadiyyatının tərkib hissəsinə çevrilməsi məqsədilə işğaldan azad edilmiş bölgələrdə məskunlaşma, layiqli yaşayış və iqtisadi fəallıq təmin ediləcək, bu ərazilərdə həyata keçiriləcək quruculuq-bərpa işləri ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarını daha da möhkəmləndirməklə yanaşı, Azərbaycanın yeni inkişaf prosesində mühüm mərhələ olacaqdır".*

Hazırda işğaldan azad olunmuş ərazilərdə kommunikasiyaların bərpası istiqamətində çoxsaylı layihələr icra olunur. Yollar çəkilir, enerji ilə təminat məsələləri yoluna qoyulur. Bunlar ilkin addımlardır. Böyük qayıdış isə kompleks tədbirlər sistemindən ibarətdir. Bu proqrama uyğun olaraq işğaldan azad olunmuş bütün ərazilərimiz tamamilə yenidən qurulacaq, doğma yurdlarına qayıdacaq vətəndaşlarımızın layiqli yaşayışı, məişəti, məşğulluğu təmin ediləcək. Qarabağ bölgəsi Azərbaycanın iqtisadiyyatına böyük töhfələr verəcək. Bütövlükdə, işğaldan azad olunmuş ərazilərimizdə inkişafın Azərbaycan nümunəsinin yeni təntənəsi yaşanacaq.

Bütün çətinliklərə, beynəlxalq ədalətsizliyə mətinliklə sinə gərən Azərbaycan dövləti inamla torpaqlarını azad etdiyi kimi, həm də erməni vandallığının qurbanı olan bütün şəhər və kəndlərini yenidən quracaq və dirçəldəcək. İşğaldan azad edilmiş rayonlarımıza, bütün Qarabağa yeni nəfəs veriləcək, bu torpaqlarda həyat qaynayacaq, dünya Azərbaycan xalqının quruculuq əzminin şahidi olacaq.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Arzular həqiqətə çevrilir



Erməni təcavüzkarları tərəfindən işğal edilmiş əraziləri azad etmək, bu torpaqlara yenidən həyat vermək - əkmək, becərmək Azərbaycan xalqının uzun illər ən müqəddəs amalına, arzusuna çevrilmişdir. Nəhayət ki, 30 ildən sonra Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz bu arzuları həqiqətə çevirdi. Torpaqlarımız azğın düşməndən təmizləndi, el - oba həsrətinə son qoyuldu, tarixi ədalət bərpa edildi.

Bu tarixi qələbə xalqımıza yeni ruh, inam verməklə, həm də illər boyu işğal altında olmuş şəhər və kəndlərimizi daha sürətlə abadlaşdırmağı, torpaqlarımızı yararlaşdırmağı, dövlət rəhbərinin bildirdyi kimi, həmin əraziləri cənnətə çevirməyi tələb edir. Bu amala şərik olmaq, işğaldan azad edilən regionların bərpasına dəstək vermək hər bir azərbaycanlının borcu və vəzifəsidir. Bunu hər bir kəs aydın duyur və qiymətləndirir.

Qarabağa kömək məqsədi ilə yaradılan fondların, nəcib çağırışların timsalında bu, aydın ifadəsini tapır və insanlar doğma Qarabağın abadlaşdırılmasına, gözəlləşdirilməsinə imkanları daxilində öz töhfələrini vermək istəyirlər.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Qarabağ Dirçəliş Fondunun fəaliyyətinin təmin edilməsi haqqında" Fərman da məhz bu istəkdən qaynaqlanır, işğaldan azad edilmiş ərazilərimizin bərpasını və yenidən qurulmasını, dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik olan regiona çevrilməsi üçün həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin gücləndirilməsini, bu sahədə dövlət - özəl münasibətlərinin, tərəfdaşlığının inkişaf etdirilməsini nəzərdə tutur, bilavasitə uzun müddət düşmən əsarəti altında olan regionların abadlaşmasına, çiçəklənməsinə və inkişafına hesablanmışdır.

Bu fərman dövlət başçısının "Biz bütün ərazilərimizi bərpa edəcəyik, cənnətə çevirəcəyik, abadlaşdıracağıq. İnsanlar bu yerlərdə normal həyata qayıdacaq, qurub yaradacaqlar" fikirlərini özündə əks etdirməklə Qarabağa olan sonsuz məhəbbətin bir daha ifadəsidir.

Azərbaycan xalqı dövlət rəhbərinin torpağa, vətənə olan məhəbbətini, sədaqətini hər bir çıxışında, əməlində duyur və hiss edir. 44 günlük müharibə dövründə Prezidentin işğaldan azad olunmuş ərazilərə - Füzuliyə, Qubadlıya, Ağdama, Xocavəndə, Şuşaya səfərlərində vətənə, torpağa sonsuz məhəbbət özünü daha aydın göstərdi. Prezident həmin səfərlər zamanı bir daha xatırlatdı ki, xalq və ordunun birliyi, əzmi möhtəşəm, unudulmaz, tarixi qələbəmizi təmin etdi, 30 illik torpaq həsrətinə son qoyuldu. Düşmən tapdağı altında inildəyən kəndlərimiz, şəhərlərimiz əsarətdən qurtuldu, şəhidlərimizin ruhu şad oldu. Əlbəttə, Prezidentimizin əzmi, qətiyyəti, xalqımızın birliyi, vətənpərvərliyi, iqtisadiyyatımızın vəziyyəti və inkişafı, beynəlxalq aləmdə dəstəklənməyimiz ümid verir ki, işğaldan azad olunan torpaqlarımızda tez bir zamanda həyat canlanacaq. Uzun illər torpaq həsrəti ilə yaşayan insanlar öz doğma yurd-yuvalarına qayıdacaq və xoşbəxt günlərə qovuşacaqlar.

İşğaldan azad olunmuş torpaqlarımız yeraltı-yerüstü sərvətlərlə zəngin olduğundan qeyri-neft sektorunun inkişafında, xüsusilə kənd təsərrüfatı məhsullarının istehsalında mühüm rol oynaya bilər. Çünki bu regionlarda pambıqçılığın, taxılçılığın, heyvandarlığın, üzümçülüyün, arıçılığın, tütünçülüyün inkişafı üçün münbit şərait vardır. Əlbəttə ki, aqrar sahənin inkişafı üçün həmin ərazilərin əkinə hazırlanması xeyli miqdarda vəsait, işçi qüvvəsi, mühüm aqrotexniki tədbirlərin həyata keçirilməsini tələb edəcəkdir ki, Azərbaycan hökuməti artıq Prezidentimizin tapşırıqları əsasında əsaslı işlər görməyə başlamışdır. Nəqliyyat infrastrukturunun qurulması, Şuşa şəhərinə yol çəkilişinin sürətlə davam etdirilməsi, ərazilərin minalardan təmizlənməsi, su, işıq təminatının yaradılması sahəsində tədbirlərin görülməsi tezliklə bütün ərazilərimizdə normal həyatın davam edəcəyinə bir zəmanətdir.

"Qarabağ Dirçəliş Fondu"nun da bu sahədə fəaliyyəti, sözsüz ki, səmərəli olacaqdır və elə bilirəm ki, hər bir vətəndaş onun formalaşmasında, imkanlar qazanmasında yaxından iştirak edəcəkdir. Bu, Qarabağın bir daha bütün dünyaya tanıdılması və ən gözəl, inkişaf edən regiona çevrilməsi üçün çox vacibdir.

***Tahir RZAYEV, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# FHN Dövlət Yanğından Mühafizə Xidməti əməkdaşlarının Vətən müharibəsi zamanı cəbhəboyu ərazilərdə fəaliyyəti yüksək qiymətləndirilib

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində tarixi Qələbənin qazanılmasında digər qurumlar kimi, Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğından Mühafizə Xidmətinin (DYMX) əməkdaşları da xüsusi fəallıqları ilə seçiliblər.

AZƏRTAC xəbər verir ki, döyüşlər zamanı cəbhəboyu ərazilərdə və azad olunmuş rayonlarda xidmət aparan qəhrəman yanğınsöndürənlər onlarca yanğının qarşısını alıb, insanların həyatını xilas ediblər. Vətən müharibəsi zamanı böyük qəhrəmanlıq göstərərək xidməti vəzifələrini layiqincə yerinə yetirən yanğınsöndürənlərin fəaliyyətini qiymətləndirmək məqsədilə FHN işçilərinin həmkarlar ittifaqı DYMX-nin əməkdaşları ilə görüşlər keçirir.

Belə görüşlərdən biri də Füzuli rayonunda FHN işçilərinin həmkarlar ittifaqının sədri Mehman İsmayılovun və FHN DYMX Füzuli Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin əməkdaşlarının iştirakı ilə təşkil olunub. Görüşdə çıxış edən Mehman İsmayılov 44 günlük Vətən müharibəsində qazanılmış şanlı Zəfərin xalq-ordu birliyinin təzahürü olduğunu bildirib. O, Müzəffər



Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində hər kəsin üzərinə düşən vəzifəni yerinə yetirmək üçün səfərbər olduğunu və nəticədə düşmən tapdağı altındakı torpaqlarımızın şəhidlərimizin qanı bahasına azad edildiyini vurğulayıb.

Həmçinin döyüşlər zamanı FHN-in Dövlət Yanğından Mühafizə Hissələrinin gücləndirilmiş iş rejimində xidmət apardığı bildirilib. Cəbhə xəttində yerləşən Füzuli rayonunun kəndlərinin düşmən tərəfindən mütəmadi olaraq ağır artilleriyadan atəşə məruz qaldığı bir vaxtda yanğınsöndürənlərin qorxmadan, çəkinmədən, operativ şəkildə öz xidməti vəzifələrini layiqincə və peşəkarlıqla yerinə yetirmələri xüsusi qeyd olunub. Nəticədə baş verən yanğınları söndürərkən həyatlarını təhlükəyə atan yanğınsöndürənlərin bu şərəfli vəzifənin öhdəsindən layiqincə gəldikləri birmənalı şəkildə vurğulanıb.

M.İsmayılov diqqətə çatdırıb ki, həmkarlar ittifaqı tərəfindən mütəmadi olaraq əməkdaşların problemlərinin həlli, onların iş şəraitinin düzgün qurulması istiqamətində lazımi addımlar atılır. Bu görüşlərin məqsədi isə Vətən müharibəsində xidməti ilə seçilən yanğınsöndürənlərin qəhrəmanlığını qiymətləndirməkdir. Bu kimi görüşlərin digər rayonlarda da keçirilməsi nəzərdə tutulur.

Görüşdə Füzuli Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin şəxsi heyəti FHN işçilərinin həmkarlar ittifaqı tərəfindən fəxri fərmanlar və hədiyyələrlə mükafatlandırılıb.

# Ermənistanın təcavüzü nəticəsində mülki insanların daşınmaz əmlakına dəymiş ziyanın aradan qaldırılmasına başlanılıb

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında rəşadətli və müzəffər ordumuzun 2020-ci il sentyabrın 27-də başladığı sülhə məcburetmə əməliyyatlarının gedişində Ermənistan silahlı qüvvələrinin xain hücumları nəticəsində ölkəmizin bir sıra şəhər və rayonları artilleriya və ballistik raket atəşinə tutularaq, insanlıq əleyhinə cinayətlər törədilib, dinc sakinlər vəhşicəsinə qətlə yetirilib, mülki obyektlərə, fərdi yaşayış evlərinə və infrastruktura irimiqyaslı zərər vurulub.

Dəymiş bu ziyanın qiymətləndirilməsi və aradan qaldırılması məqsədilə Prezident İlham Əliyevin 2020-ci il 6 noyabr tarixli Sərəncamı ilə Dövlət Komissiyası yaradılıb. Dövlət Komissiyasının nəzdində yaradılmış müxtəlif dövlət qurumlarının əməkdaşları və mütəxəssislərdən ibarət işçi qruplar tərəfindən qısa müddətdə, ümumilikdə, 11 şəhər və rayon ərazisində 10 mindən çox obyektə baxış keçirilib, qiymətləndirmə və təmir-tikintinin ilkin planlaşdırılması işləri aparılıb.

Zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin aparılması üçün yaşayış evlərinin və obyektlərin tikintisi üzrə sifarişçi funksiyaları, habelə inşa prosesində həyata keçiriləcək işlərin təşkili və əlaqələndirilməsi Azərbaycan Respublikası Baş nazirinin 2021-ci il 14 yanvar tarixli Sərəncamı ilə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə həvalə edilib.

AZƏRTAC xəbər verir ki, artıq Dövlət Şəhərsalma və Arxitektura Komitəsi 11 rayon və şəhər ərazisində bərpa və təmir-tikinti işlərinə başlayıb. Tərtər rayonunda işlərin gedişi ilə tanış olan Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov jurnalistlərə müsahibəsində bildirib ki, qısa müddət ərzində zəruri hazırlıq işləri aparılıb, iş həcmləri dəqiqləşdirilərək ərazilər üzrə qruplaşdırılıb, ziyan dəymiş hər bir şəhər və rayon ərazisində təmir-tikinti işlərinə start verilib. Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində dəymiş ziyanın aradan qaldırılması üzrə işlərə Gəncə, Mingəçevir və Naftalan şəhərlərində, habelə Tərtər, Füzuli, Cəbrayıl, Goranboy, Ağdam, Ağcabədi, Beyləqan və Bərdə rayonları ərazisində paralel olaraq başlanılıb.

Dəymiş ziyanın aradan qaldırılması məqsədilə təmir olunacaq və ya yenidən qurulacaq obyektlərin əksəriyyətini qismən zədələnmiş və ya tamamilə dağıdılmış fərdi yaşayış evləri təşkil edir. Təmiri, bərpası mümkün olmayan yaşayış evlərinin əvəzində 2, 3, 4, 5 otaqlı eynitipli evlərin inşası nəzərdə tutulur. Bununla yanaşı, ziyan dəymiş tikililər sırasında çoxmənzilli binalar, sosial və sahibkarlıq obyektləri də var.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi əhaliyə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin verdiyi tapşırıqları rəhbər tutaraq, insanların mümkün olan ən qısa müddət ərzində doğma şəhər və qəsəbələrində əvvəlki həyata qayıtması, rahat və təhlükəsiz yaşayış və iş şəraitinin təmin olunması məqsədilə təxirəsalınmaz tədbirləri yerinə yetirəcək, bunun üçün bütün zəruri resurslarını səfərbər edəcək.

# Düşmənin dağıtdığı evlər yenidən tikilir

**Ermənistan silahlı qüvvələri tərəfindən 2020-ci il sentyabrın 27-dən başlayaraq Azərbaycanın yaşayış məntəqələrinin mərmi və raket atəşinə tutulması nəticəsində mülki əhaliyə məxsus fərdi evlərə dəyən ziyanın aradan qaldırılmasına başlanılıb.**

AZƏRTAC xəbər verir ki, Tərtər rayonunda Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində ziyan dəymiş obyektlərin sayı bu günə olan məlumata görə, 4 mini keçib. Artıq Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən bərpa və təmir-tikinti işlərinə başlanılıb.

Yeni inşa ediləcək fərdi evlərin bünövrəsi qazılır və beton işləri həyata keçirilir.







Düşmənin artilleriya atəşi nəticəsində evi dağılmış Nemət Ərəbov bir gün də olsun ruhdan düşmədiyini bildirib: "Ermənilərin atəşi nəticəsində evimizə bir neçə top mərmisi düşmüşdü. Ev tamamilə yararsız idi. Ancaq buna baxmayaraq təəssüflənmədik, inamımızı itirmədik. Bilirdik ki, arxamızda güclü dövlətimiz, qətiyyətli Prezidentimiz var. Bu gün ailəmiz üçün yeni beşotaqlı evin tikintisinə başlanılır".

Tərtər şəhər sakini Sahib İsmayılov isə deyib: "Oktyabrın 26-da evimizə "Smerç" tipli raket düşərək, tamamilə dağıtmışdı. Artıq həyətimizdə yeni dördotaqlı evin təməli qoyuldu. Tezliklə ailəmlə birlikdə yeni mənzildə yaşayacağıq. Buna görə dövlətimizin başçısına ailəmiz adından minnətdarlığımı bildirirəm".

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu gündən 11 rayon və şəhərdə bərpa və təmir-tikinti işlərinə başlayıb.

## İlin uğurlu yekunları

# Azərbaycanı dünyada şərəfləndirən qələbə

## Müzəffər Ali Baş Komandan İlham Əliyev respublikamızın ərazi bütövlüyünü bərpa etməklə öz tarixi missiyasını uğurla yerinə yetirdi

(Əvvəli qəzetin 27 yanvar tarixli nömrəsində)

### Füzulinin azad olunması strateji uğur idi

"Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib - Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!" Bu müjdəni Prezident İlham Əliyev Azərbaycan xalqına oktyabrın 17-də etdiyi müraciətində verdi.

Cəbrayıldan sonra Füzuli şəhərinin də azad edilməsi Azərbaycan xalqı tərəfindən böyük coşqu ilə qarşılandı. Füzulinin azad edilməsi həm də ordumuzun qarşıdakı əməliyyatları baxımından strateji əhəmiyyət kəsb edirdi. Təsadüfi deyil ki, Prezident İlham Əliyev müraciətində qeyd etdi ki, strateji nöqteyinəzərdən Füzulinin təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılması bizə növbəti strateji üstünlüklər verdi.

Bir məsələni də xüsusi qeyd etməliyik ki, Ermənistan Füzuli istiqamətində cəbhə xəttini olduqca gücləndirmişdi, bir neçə mərhələli müdafiə mövqeləri yaratmışdı. Lakin qəhrəman Azərbaycan əsgərinin gücü və əzmi qarşısında bu mövqelər tab gətirə bilmədi və elə ilk həmlədə ələ keçirildi. Füzulinin azad edilməsi ilə ordumuz yeni tarix yazdı, öz gücünü, döyüş əzmini bir daha nümayiş etdirdi.

Bölgə inzibati ərazi vahidi kimi Füzuli 1827-ci ildə yaradılıb və ilkin adı Qarabulaq olub. Rayon kimi isə sovet hakimiyyəti dövründə 1930-cu ilin avqust ayında təşkil olunub və çar Rusiyasının generalının şərəfinə Qaryagin adlandırılıb. 1959-cu ilin aprelində böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Qaryagin rayonunun adı dəyişərək Füzuli adlandırılıb.

Vaxtilə rayonda onlarca insana Sosialist Əməyi Qəhrəmanı adı verilib. 7 çağırış SSRİ Ali Sovetinin, 9 çağırış Azərbaycan SSRİ Ali Sovetinin deputatı seçilmiş Şamama Həsənova 2 dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb. Füzulidən 300-dən artıq elmlər namizədi və elmlər doktoru yetişib.

1993-cü ilin avqustunda Ermənistan silahlı qüvvələrinin rayon ərazisinə hücumu nəticəsində Füzuli şəhəri, Horadiz qəsəbəsi və rayonun kəndləri işğal olundu. Həmin ilin dekabrında Azərbaycan Ordusunun başlatdığı əməliyyat nəticəsində yanvar ayında işğal olunmuş 21 kənd və strateji cəhətdən əhəmiyyətli Horadiz qəsəbəsi işğaldan azad edildi. Hazırda rayonun 140 min nəfərdən artıq əhalisinin 50 faizə qədəri rayon ərazisindəki Horadiz şəhərində, 21 kənddə və 17 qəsəbədə yaşayır. Ölkə rəhbəri İlham Əliyevin sərəncamları ilə Füzuli rayonu ərazisində məcburi köçkünlər üçün 11 Qayıdış, 5 Zobucuq, 1 Fin qəsəbələri salınıb. Əhalinin digər qismi Bakı, Sumqayıt, Gəncə, Beyləqan, İmişli, Saatlı, Sabirabad və digər şəhər və rayonlarda məcburi köçkün kimi müvəqqəti məskunlaşıb.

Azərbaycan Ordusunun işğaldan azad etdiyi növbəti ünvanlardan biri də Araz çayı üzərindəki qədim Xudafərin körpüsü oldu. Prezident İlham Əliyev Xudafərin körpüsündə Azərbaycan bayrağının ucaldılmasını oktyabrın 18-də elan etdi.

Azərbaycan memarlıq məktəbi üslubunda inşa olunmuş, XI-XII əsrlərə aid bu körpünün azad edilməsinin xalqımız üçün xüsusilə mühüm əhəmiyyəti var. Çünki bu körpü bizim tariximizin, zəngin dövlətçiliyimizin tərənnümçüsüdür. Bu körpü Azərbaycan xalqının milli kimliyinin təsdiqidir. Körpünün işğaldan oktyabrın 18-də - Azərbaycanın Dövlət Müstəqilliyi Günü azad edilməsinin isə xüsusilə rəmzi mənası var. Körpünün məhz həmin gün azad edilməsi müstəqillik tariximizi daha da şərəfləndirdi.

### İranla dövlət sərhədinə nəzarət tam təmin olundu

Oktyabr ayı boyunca işğaldan azad edilən yaşayış məntəqələrinin sırasına hər gün yeniləri əlavə olunurdu. Ordumuzun qarşısında duruş gətirə bilməyən düşmən artıq son nəfəsini verir və Böyük Qələbəyə sayılı günlər qalırdı. Xudafərin körpüsündə Azərbaycan bayrağının ucaldılmasından bir gün sonra - oktyabrın 19-da xalqımız Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndlərinin azad olunması xəbəri ilə sevindi.

Kəndləri işğaldan azad olunan rayonların sırasına oktyabrın 20-dən Zəngilan da əlavə olundu. Beləliklə, Azərbaycan Ordusunun qələbələrinin növbəti ünvanı Zəngilan şəhəri və bu rayonun kəndləri oldu. Bu barədə Prezident İlham Əliyev oktyabrın 20-də Azərbaycan xalqına etdiyi növbəti müraciətində məlumat verdi. Xatırladaq ki, bu, Prezidentin sayca beşinci bəyanatı idi. Şanlı Azərbaycan Ordusunun Zəngilan rayonu ərazisinə də daxil olduğunu deyən dövlət başçısı Havalı, Zərnəli kəndi, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndlərini və Zəngilan şəhərinin azad edilməsi xəbərini xalqımıza çatdırdı.

Bununla yanaşı, Ali Baş Komandan Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı, Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli və Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi) və Çinarlı kəndlərinin azad olunduğunu da bəyan etdi. *"Qovuruq onları bizim torpaqlarımızdan, bundan sonra da qovacağıq! Hər gün xoş xəbərlər gəlir. Hər gün bayrağımız yeni bir yaşayış məntəqəsində ucaldılır. Budur, Azərbaycan dövlətinin, Azərbaycan xalqının gücü. Otuz il ərzində Ermənistan rəhbərliyi "güclü ordusu" haqqında uydurmalar ortalığa atırdı, "yenilməz Ermənistan ordusu" barədə miflər yaradırdı. Haradadır bu "yenilməz Ermənistan ordusu?"* Görün, necə qaçır bizim qabağımızdan. Bu, mif idi, bu, yalan idi. Bunu biz yerə vurduq", - deyə Prezident İlham Əliyev müraciətində bildirdi.

Prezident İlham Əliyev oktyabrın 21-də özünün rəsmi "Twitter" səhifəsində Azərbaycan Ordusunun Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndlərini, Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndlərini işğaldan azad etdiyini bildirdi.

Oktyabrın 22-də Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili, Zəngilan rayonunun isə Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərinin və Ağbənd qəsəbəsinin azad olunması xəbəri gəldi. Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu.

Oktyabrın 23-də isə Ali Baş Komandan Müzəffər Azərbaycan Ordusu tərəfindən Xocavənd rayonunun Dolanlar, Bünyadlı kəndlərinin, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərinin işğaldan azad olunduğunu bəyan etdi.

### Zəngilandan Qubadlıya doğru

Zəngilandan sonra Azərbaycan Ordusunun növbəti hədəfi Qubadlının azad olunması idi və bu rayondan ilk xəbər oktyabrın 23-də gəldi. "Müzəffər Azərbaycan Ordusu Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndlərini işğaldan azad etmişdir", - deyə Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində yazdı.

Zəngilanın azad edilməsindən sonra Ermənistan Qubadlı rayonu ərazisinə əlavə qoşunlar cəlb etmişdi. Lakin Müzəffər Ordumuzun qarşısında onların hamısı aciz qaldı və oktyabrın 25-də Ali Baş Komandan İlham Əliyevin Qubadlı şəhərinin işğalçılardan azad edilməsi xəbərini xalqımıza verdi.

Dövlət başçısı Qubadlı şəhərinin və bu rayonun bir neçə kəndinin işğalçılardan azad olunmasında fərqlənmiş hərbi birlik komandirləri Yaşar Həsənovu və Zaur Quliyevi təbrik etdi, onlara Vətən uğrunda gedən döyüşlərdə yeni uğurlar arzuladı.

Oktyabrın 26-da xalqa müraciət edən Prezident İlham Əliyev Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd, Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər, Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndlərinin və Qubadlı şəhərinin azad olunduğunu bəyan etdi.

Uğurlu hücum əməliyyatlarını davam etdirən ordumuz oktyabrın sonlarına doğru Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Aladin, Vejnəli, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan, Kavdadıq, Məmər, Mollalı kəndlərini də işğaldan azad etdi.

Noyabrın əvvəllərində növbəti uğurlu əməliyyatlar həyata keçirən ordumuz Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Mirək, Kavdar, Yuxarı Məzrə, Yanarhac, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Məşədiismayıllı, Şəfibəyli, Beşdəli, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı, Başarat, Qarakişilər, Qaracallı, Qəzyan, Balasoltanlı, Mərdanlı, Xocalının Qarabulaq, Moşxamat, Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad etdi. Bunlar barədə Prezident İlham Əliyev noyabrın 2-də, 4-də və 7-də "Twitter" hesabından məlumat verdi.

### Qarabağın tacı azad edildi

Sentyabrın 27-dən başlanan hərbi əməliyyatlardan sonra hər gün cəbhədən Azərbaycan əsgərinin qələbə dolu müjdələri gəldi. Bu qələbələrlə Ali Baş Komandan İlham Əliyev Azərbaycan tarixinin ən şərəfli səhifələrinin müəllifinə çevrildi. Hər gün işğaldan azad edilmiş yaşayış məskənlərimizin sıralarına yeni adlar yazıldı.

Prezident İlham Əliyev müsahibələrindən birində bildirmişdi ki, Şuşasız bizim işimiz yarımçıq olar. Ona görə hərbi əməliyyatların gedişində bütün Azərbaycan xalqı Şuşanın azad olunacağı günü gözləyirdi. Hər gün irəli gedən, düşməni əzən Azərbaycan əsgəri müzəffər yürüşü ilə o günü reallaşdırdı və noyabr ayının 8-də Qarabağın tacı Şuşanı azad etdi.

Həmin gün and yerimiz olan Şəhidlər xiyabanından xalqa müraciət edən Prezident İlham Əliyev Şuşanın azad olunması münasibətilə xalqımızı təbrik etdi: *"Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm".*

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev birlik komandiri general-leytenant Hikmət Mirzəyevə zəng edərək Şuşa şəhərinin işğalçılardan azad edilməsi münasibətilə onu təbrik etdi. Dövlət başçısı Şuşanın azad edilməsində qəhrəmancasına və rəşadətlə iştirak etmiş hərbi qulluqçulara, Silahlı Qüvvələrimizin bütün şəxsi heyətinə təbriklərini çatdırdı.

Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilandan sonra qədim Azərbaycan şəhəri, milli qürurumuzun ünvanı Şuşanın azad edilməsi bütün Azərbaycan xalqının dərin sevincinə səbəb oldu. Şuşanın işğaldan azad edilməsi müasir Azərbaycan tarixinə ən möhtəşəm hadisə kimi həkk olundu. Bu qələbənin fatehi isə Ali Baş Komandan İlham Əliyevdir. İlham Əliyevin gücləndirdiyi ordusu, qəhrəman əsgərlərimiz bu qələbəni, bu sevinci xalqımıza yaşatdılar.

### Ermənistan məğlubiyyətini bəyan etdi

Prezident İlham Əliyev noyabrın 9-da daha 72 kəndin, 1 qəsəbənin və 8 strateji yüksəkliyin azad olunduğunu bəyan etdi. Bundan sonra Azərbaycanın qarşısında məğlubiyyətini anlayan işğalçı Ermənistanın rəhbərliyi Prezident İlham Əliyevin şərtlərinə uyğun kapitulyasiya aktını imzalamağa məcbur edildi. Noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatla işğalçı Ermənistan kapitulyasiyaya, təslim olmağa məcbur oldu. Bununla da ölkəmizin ərazi bütövlüyü təmin edildi. Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin imzaladığı bəyanat işğalçı ölkənin məğlubiyyətinin təsdiqi oldu.

Bəyanatda yer alan müddəalar və qarşıya qoyulan vəzifələr Ermənistanın respublikamızın ərazi bütövlüyü ilə bağlı razılaşmaları yerinə yetirməsinə məcbur edilməsindən ibarətdir. 30 ilə yaxın idi torpaqlarımızı işğal altında saxlayan, sülh danışıqlarının birinci bəndini belə yerinə yetirməkdən boyun qaçıran Ermənistanı Azərbaycan güc yolu torpaqlarımızdan çıxmağa məcbur etdi. Azərbaycan Ordusu işğalçını torpaqlarımızdan qovaraq, dəmir yumruqla məhv edərək çıxartdı. Ali Baş Komandan İlham Əliyev bütün dünyaya, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrlərinə sübut etdi ki, danışıqları anlamayan Ermənistanı müharibə yolu ilə başa salmaq mümkündür.

*"Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 30 illik həsrətinə son qoyulur"* - deyə Prezident İlham Əliyev noyabrın 10-da xalqa müraciətində bildirdi.

Noyabrın 10-da Ermənistan baş nazirinin imzaladığı kapitulyasiya aktından sonra ölkənin hakimiyyət orqanları müharibədəki məğlubiyyəti rəsmən etiraf etdilər. Beləliklə Azərbaycan torpaqlarının bir hissəsini döyüş yolu ilə azad etdi. Kapitulyasiya aktına əsasən isə Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxarması ilə bağlı öhdəlik götürdü. Ordumuzun sürətli yürüşünün nəticəsi olaraq Ermənistanın siyasi-hərbi rəhbərliyi Prezident İlham Əliyevin şərtlərini yerinə yetirməyə məcbur oldu.

44 günlük müharibə Azərbaycan üçün şərəf və milli ləyaqət məsələsi idi. İlham Əliyevin Ali Baş Komandanlığı ilə qəhrəmanlıqla döyüşən ordumuz və öz rəhbəri ətrafında sıx birləşən, həmrəylik nümayiş etdirən xalqımız bu müharibədən şərəflə və ləyaqətlə çıxdı.

### Ağdam, Kəlbəcər və Laçının azad olunması hərbi qələbənin nəticəsi idi

Üçtərəfli Bəyanatın bütün bəndləri Azərbaycanın milli və dövlət maraqlarına uyğun idi. Sənədin bəndləri həm də işğal altında qalan digər rayonların azad olunmasını nəzərdə tuturdu. Beləliklə, Ermənistanın kapitulyasiyasına uyğun olaraq noyabrın 20-də Ağdam rayonu, noyabrın 25-də Kəlbəcər rayonu, dekabrın 1-də isə Laçın rayonu Azərbaycan Ordusunun nəzarətinə keçdi. Hərbi qələbə ilə Ermənistanı məğlub edən Azərbaycan bir güllə belə atmadan hər üç rayonu azad etdi. Artıq bu rayonların hər birində Azərbaycan bayrağı dalğalanır və onların azad edilməsi ordumuzun döyüş meydanlarındakı şanlı qələbələrinin nəticəsidir.

Bununla da torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsində işğaldan azad olunan rayonlarımızın sırasına Ağdam, Kəlbəcər və Laçın rayonları da əlavə olundu. Bu rayonların azad olunması Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyii ilə Vətən müharibəsində xalqımızın qazandığı şanlı qələbənin nəticəsidir.

Qarabağda ikinci erməni dövləti yaratmaq xülyasına düşən Ermənistan ilk olaraq Şuşanı, Laçını və Kəlbəcəri işğal etmişdi. Qarabağ deyəndə əvvəlcə göz önünə Şuşa gəlir. Şuşasız Qarabağı təsəvvür etmək mümkün deyil. Kəlbəcər və Laçın isə Ermənistanla Qarabağ arasında coğrafi bağlılıq baxımından ermənilər üçün strateji əhəmiyyət daşıyırdı. Şuşa həm də kifayət qədər mühüm strateji məkanda yerləşir. Şəhərin təbii relyefi onu düşmən hücumundan olduqca güclü və möhkəm bir şəkildə mühafizə edir. Ona görə 1992-ci ildə şəhərin ermənilər tərəfindən işğal edilməsi Birinci Qarabağ müharibəsinin ən ağrılı hadisəsi olmuşdu. Lakin Şuşanın işğalı Ermənistanın hərbi imkanlarının nəticəsi deyildi. Ermənistan heç vaxt Azərbaycandan güclü olmayıb. Şuşanın işğalı o dövrdə Azərbaycanda gedən siyasi çəkişmələrin, hakimiyyət uğrunda mübarizənin nəticəsi idi. Prezident İlham Əliyev Şuşada hərbçilərlə görüşü zamanı bu barədə danışaraq AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində bu şəhərin işğal olunduğunu bildirdi: *"Çünki Pənahəli xan bu şəhəri elə salmışdır ki, hər tərəfdən sıldırım qayalar və təbii landşaft Şuşanı mühafizə edir. 1992-ci ilin mayında ovaxtkı Azərbaycan rəhbərliyinin və hakimiyyət uğrunda mübarizə aparan AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində Şuşa işğal altına düşdü".*

Şuşanın, daha sonra Laçının işğal olunması hakimiyyət uğrunda mübarizə aparan AXC-Müsavat cütlüyünün siyasi hoqqalarının nəticəsi idi ki, bu da vətənə xəyanətdən başqa bir şey deyildi. O cümlədən Kəlbəcərin işğal olunması AXC hakimiyyətinin yarıtmaz siyasətinin nəticəsi idi. Bununla da düşmən Ermənistandan Qarabağa gedən yollara nəzarəti ələ keçirdi və Azərbaycanın digər rayonlarının işğalı üçün münbit şərait formalaşdı.

Ağdama gəldikdə isə, Qarabağda erməni separatizmi başlayanda bu rayon Qarabağın qeyri-rəsmi mərkəzinə çevrilmişdi. Ermənilər Ağdamın adı belə çəkiləndə qorxularından tir-tir əsirdilər. Çünki ağdamlılar Ermənistanın işğal siyasətinin qarşısında keçilməz sipər idilər. Təsadüfi deyil ki, müstəqilliyimizin ilk illərində Ağdamda yaradılmış özünümüdafiə batalyonları rayonun və Qarabağın müdafiəsi istiqamətində çox böyük işlər görmüş, qəhrəmanlıq göstərmişdilər. Onlar Ermənistanın işğalçılığının qarşısını almaq üçün qəhrəmancasına döyüşdülər. Lakin AXC hakimiyyətinin yarıtmaz siyasəti nəticəsində 1993-cü ilin ortalarına doğru yaranmış vəziyyət Ağdamın işğal olunmasına səbəb oldu.

Bu gün Ağdam azaddır. İlham Əliyev Ağdamı azad etməklə əfsanəvi komandirlər - Milli Qəhrəmanlar Allahverdi Bağırovun, Şirin Mirzəyevin və digər komandirlərin, rayonun 6000 minə yaxın şəhidinin ruhunu şad etdi.

Ağdam deyəndə gözümüzün önünə milli mədəniyyətimiz, musiqimiz gəlir. Ağdam Şuşa ilə yanaşı, Azərbaycan musiqisinin beşiklərindən biridir. Bəli, İlham Əliyev Ağdamı azad etməklə, həm də bu zəngin diyarın mədəniyyətini, musiqisini xilas etdi. Bizim böyük sənətkarlarımız, Azərbaycanın ilk Xalq artisti, tarzən Qurban Pirimovun, mərhum Xalq artistləri Sara Qədimovanın, Qədir Rüstəmovun ruhları bu gün rahatdır. Çünki biz Qarabağa, Ağdama qayıtdıq.

Azərbaycan Ordusu torpaqlarımızı azad etdikcə həm də bütün dünya erməni vəhşiliyinin şahidi oldu. Kənd və şəhərlərimizin dağıdılması hər birimizi göynətdi. İşğaldan azad edilmiş bütün ərazilərimiz erməni vandallığının qurbanı olub, şəhər və kəndlərimiz viran qoyulub, xalqımıza və dövlətimizə qarşı cinayət törədilib, təbiətimizə qəsd edilib. Ağdam, Cəbrayıl, Füzuli şəhərlərindən əsər-əlamət qalmayıb. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, dağıdılmış yurd yerlərimizin qiymətləndirilməsi aparılacaq. Bu işə beynəlxalq qurumlar və xarici ekspertlər də cəlb ediləcək. 30 il ərzində bizə vurulmuş ziyan hesablanacaq və bundan sonra beynəlxalq məhkəmələrdə Ermənistana qarşı təzminat davası açılacaq. O cümlədən son günlərdə də Ağdamı və Kəlbəcəri yandıran düşmən bunların da cavabını mütləq verəcək.

Artıq azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işləri başlayıb. Tək işğalçı yox, həm də barbar olan Ermənistanın yerləyeksan etdiyi, haqlı olaraq "Qafqazın Xirosiması" adlandırılan Ağdam da tezliklə yenidən qurulacaq, əvvəlki şöhrətini bərpa edəcək. O cümlədən İlham Əliyevin müəllifi olduğu Böyük Qayıdış proqramı Laçına və Kəlbəcərə yeni nəfəs verəcək. Gözəl təbiəti, zəngin sərvətləri olan bu rayonların daşı, torpağı bir xəzinədir. Bir vaxtlar bütün ittifaq miqyasında məşhur olan Kəlbəcərin İstisuyu bundan sonra müstəqil Azərbaycanı dünyada tanıdacaq. Laçın, Şuşa, Qubadlı öz gözəllikləri ilə Azərbaycanın turizm mərkəzlərinə çevriləcəklər, iqtisadi potensialları ilə ölkəmizin qeyri-neft sektorunun inkişafına töhfə verəcəklər.

Artıq bu il dövlət büdcəsindən işğal altında olan ərazilərin yenidən qurulması üçün 2,2 milyard manat vəsait ayrılıb. Hesab edirəm ki, bu vəsaitlə, o cümlədən Prezidentin sərəncamı ilə yaradılan Qarabağ Dirçəliş Fondunun iştirakı ilə bu il işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində böyük işlər görüləcək. Artıq işlər başlayıb. Prezident İlham Əliyevin Şuşaya səfəri zamanı təməli qoyulan aeroport, Füzuli-Şuşa yolunun tikintisinə atılan ilk addımlardır və görünən odur ki, İlham Əliyevin qeyd etdiyi kimi, Qarabağ tezliklə cənnətə çevriləcək.

*(Ardı var)*

***Ziyad SƏMƏDZADƏ,***
***AMEA-nın həqiqi üzvü,***
***Milli Məclisin deputatı***

# TAP-ın istifadəyə verilməsi TANAP-ın strateji əhəmiyyətini artırır



*Əvvəli 1-ci səh.*

Prezident eyni zamanda digər layihələr üzrə də uğurlu işlər aparıldığını qeyd etdi. Əmin olduğunu bildirdi ki, bu layihələrin işlənməsi ölkəmizə həm iqtisadi, həm siyasi sahədə əlavə dividendlər gətirəcək.

Hazırda uğur gətirən əsas layihələrdən biri artıq üçüncü ildir fəaliyyət göstərən Trans-Anadolu Qaz Boru Kəməri - TANAP-dır. Belə ki, bu kəmər indiyədək Türkiyəyə 9,1 milyard kubmetr Azərbaycan təbii qazı nəql edib. Bu barədə Türkiyənin enerji və təbii sərvətlər naziri Fatih Dönmez məlumat verib.

Keçən il TANAP-la Türkiyəyə təqribən 4,9 milyard kubmetr qaz çatdırılıb. Yəni qardaş ölkə ötən il ərzində idxal etdiyi təbii qazın 24 faizini Azərbaycandan alıb. Fəaliyyət göstərdiyi birinci ildə TANAP 2 milyard kubmetr qaz ixrac edib. İkinci il 2020-ci il iyunun 30-da tamam olub və həmin tarixə TANAP-la daşınan Azərbaycan qazının həcmi 5,8 milyard kubmetrə çatıb.

Hazırda kəmərin illik ötürücülük gücü 16 milyard kubmetrdir. 2023-cü ildə xəttin qazötürmə qabiliyyətinin 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. İlkin mərhələdə TANAP-la nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq.

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı Türkiyəyə nəql edən bu boru xətti Türkiyə-Gürcüstan sərhədində genişləndirilmiş Cənubi Qafqaz Boru Kəməri (CQBK) ilə birləşib, Türkiyə-Yunanıstan sərhədində isə TAP-la qovuşub. Başqa sözlə, TANAP Türkiyənin Gürcüstanla sərhədindəki Ərdahan vilayətinin Posof mahalından başlayaraq qardaş ölkənin 20 vilayətindən keçir. Kəmər Türkiyənin Yunanıstanla sərhədindəki Ədirnə vilayətinin İpsala qəsəbəsinədək uzanır.

"Cənub qaz dəhlizi"nin birləşdirici halqası olan TANAP-ın uzunluğu 1850 kilometrdir. Qeyd edək ki, layihə iki fazada işlənib. Yəni kəmərin Gürcüstan-Türkiyə sərhədindən başlayan hissəsi 1350 kilometr məsafə boyu Əskişəhərə qədər uzanır. Qalan hissəsi isə Əskişəhərdən Türkiyə-Yunanıstan sərhədinədək çatır.

TANAP Azərbaycanın və Türkiyənin, bu iki ölkənin prezidentlərinin birgə səyi ilə gerçəkləşdirilmiş layihədir. Azərbaycanla Türkiyə arasında TANAP-la bağlı anlaşma memorandumu 2011-ci il dekabrın 24-də imzalanıb. Bu boru kəməri sisteminə dair saziş isə 2012-ci il iyunun 26-da İstanbulda imzalanaraq sonra hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. Bununla da TANAP-ın tikintisi ilə bağlı razılıq əldə edilib.

2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə TANAP-ın təməli qoyulub. 2018-ci il iyunun 12-də kəmər istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqlinə planlaşdırıldığı kimi həmin il iyunun 30-da başlanıb. TANAP-ın Avropaya qaz nəqlini nəzərdə tutan ikinci fazası 2019-cu il noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində istifadəyə verilib. Bununla da TANAP və TAP kəmərləri bir-birinə calanıb. TANAP layihəsinə 6,5 milyard dollar vəsait xərclənib.

TANAP-ın səhmlərinin 51 faizi "Cənub qaz dəhlizi" QSC-yə, 7 faizi "SOCAR Turkey Enerji A.Ş."yə (STEAŞ), 30 faizi BOTAŞ-a, 12 faizi BP şirkətinə məxsusdur.

"Enerjinin İpək yolu" adlandırılan TANAP gələcəkdə təbii qazın təkcə "Şahdəniz"dən deyil, Azərbaycanın digər yataqlarından da Avropa bazarlarına nəql etmək potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyətə malikdir.

2019-cu il noyabrın 30-da TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimində Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan bu kəmərin əhəmiyyətini belə vurğulamışdır: "TANAP Azərbaycan, Gürcüstan, Türkiyə marşrutundan Avropaya - TAP xəttinə birləşir və təbii ki, oradan davam edərək Bolqarıstan, Yunanıstan, Makedoniya, Albaniya, Serbiya, Bosniya və Herseqovina marşrutu üzərindəki ölkələr də ondan faydalanır. Təbii ki, bütün bu addımları atarkən bunun bir regional layihə, bir sülh layihəsi olduğunu da xüsusilə vurğulamaq lazımdır. Gürcüstan ərazisindən Anadoluya giriş reallaşarkən Gürcüstanın buradakı səylərini əsla inkar etmək olmaz. Bu, bir həmrəylikdir və bu həmrəyliyin adı da sülhdür. Bu layihə hər şeydən əvvəl ölkələrimiz arasındakı köklü dostluğun rəmzidir. TANAP bu mərhələyə Türkiyə və Azərbaycanın qarşılıqlı inama söykənən əlaqələri sayəsində gələ bilmişdir. Layihənin uğur qazanmasında istehsalçı, tranzit və istehlakçı ölkələrlə bu layihədə pay sahibi olan şirkətlər arasındakı uzlaşma da həlledici rol oynayıb".

Azərbaycan qazı artıq Avropaya çatıb. TAP kəməri bu qitəyə daşıdığı mavi yanacağı məhz TANAP-dan qəbul edir. Odur ki, TAP-ın istifadəyə verilməsi ilə TANAP-ın strateji əhəmiyyəti daha da artır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Avropada ədalət mühakiməsinin səmərəliliyinə azərbaycanlı hakim nəzarət edir

## Bakı Apellyasiya Məhkəməsinin hakimi Ramin Qurbanovun Avropa Şurasının mühüm hüquq təsisatı olan SEPEJ-in prezidenti vəzifəsinə təkrar seçilməsi həm də ölkəmizdə aparılan məhkəmə-hüquq islahatlarına beynəlxalq etimadın göstəricisidir

**Dövlət müstəqilliyinin bərpasının 30-cu ildönümü ərəfəsində olan müstəqil Azərbaycan yalnız sosial-iqtisadi uğurları ilə deyil, həm də mütərəqqi ruhlu hüquqi-siyasi islahatları, insan və vətəndaş hüquq-azadlıqlarının təminatına yönəlmiş kompleks tədbirlər sistemi ilə hazırda beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Hüquqi və dünyəvi dövlət quruculuğu istiqamətində ardıcıl islahatlar həyata keçirən respublikamız, eyni zamanda müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılması sahəsində də mühüm nailiyyətlərə imza atıb.**



CEPEJ prezidenti Ramin Qurbanovun dəvətinə əsasən Avropa İnsan Hüquqları Məhkəməsinin sədri və hakimləri CEPEJ-in plenar iclasında



CEPEJ-in plenar iclası

Dövrün aktual çağırışlarına, Azərbaycanın dinamik iqtisadi inkişaf strategiyasının nailiyyətlərinə əsaslanan bu islahatlar respublikamızın məhkəmə-hüquq sistemi ilə bağlı beynəlxalq arenada obyektiv rəyin formalaşmasını təmin edir. Təkcə onu demək kifayətdir ki, son 15 ildə ölkəmizdə hakim vəzifəsinə seçkilərin azad, şəffaf və demokratik şəraitdə keçirilməsi, habelə bu sahədə mükəmməl mexanizmlərin formalaşdırılması Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (SEPEJ/CEPEJ) tərəfindən yüksək qiymətləndirilməklə, təşkilata üzv dövlətlərə mütərəqqi təcrübə kimi tövsiyə olunub.

Bu gün Avropanın hətta bir sıra inkişaf etmiş ölkələrində belə hakimlər və məhkəmələrin fəaliyyəti ilə bağlı müəyyən problemlərin, nöqsanların müşahidə edildiyi halda, SEPEJ-in Azərbaycanın məhkəmə-hüquq islahatlarının uğurlarını təqdir etməsi, habelə ölkəmizlə qarşılıqlı etimada əsaslanan əməkdaşlığı obyektiv reallığı əks etdirir.

### Yüksək etimadın təzahürü

Bu etimadın nəticəsidir ki, Vətən müharibəsində Şanlı Qələbəmizin qeyd edildiyi bir dövrdə 2020-ci il dekabr ayının 8-də Fransanın Strasburq şəhərində 47 Avropa dövlətinin nümayəndələrinin videokonfrans formatında iştirak etdiyi plenar iclasında Azərbaycanın nümayəndəsi, hüquq elmləri doktoru Ramin Qurbanov Avropa Şurasının mühüm hüquq təsisatı olan Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının prezidenti vəzifəsinə təkrarən seçilib və bu ilin yanvar ayından səlahiyyətlərinin icrasına başlayıb.

Ramin Qurbanov 2005-ci ildən Avropa Şurasının sözügedən qurumunda ölkəmizi layiqincə təmsil edir. O, SEPEJ-də Azərbaycanın təmsilçisi, milli məruzəçisi olaraq uzun illər qurumun əksər işçi qrup və komitələrinin fəaliyyətində məhsuldar, fəal iştirakı ilə rəğbət qazanıb. Avropa ölkələrinə təşkil olunan monitorinq səfərlərində səmərəli fəaliyyət göstərərək onlardan bir neçəsinə rəhbərlik edib. Avropa Şurasının müraciətləri əsasında xarici dövlətlərdə SEPEJ-in fəaliyyətini, ədliyyə sahəsində Avropa standartlarını, o cümlədən ölkəmizin məhkəmə-hüquq sistemindəki müsbət təcrübəsini təbliğ edib. Avropa Şurasının bir sıra elmi nəşrlərinin hazırlanmasında yaxından iştirak etməklə, onların müəllifi olub.

Bu sahədəki uğurlu fəaliyyəti, bacarıqlı təşkilatçılığı, daim ədalətli və prinsipial mövqe nümayiş etdirməsi sayəsində azərbaycanlı hüquqşünas gizli səsvermə əsasında öncə SEPEJ-in büro üzvü, sonra vitse-prezidenti seçilib və 2018-ci ildə isə ona bu mühüm hüquq təsisatına prezidentlik vəzifəsi Avropanın 47 üzv-dövləti tərəfindən etibar edilib.

Xüsusilə qeyd edilməlidir ki, məhz dövlət başçısının səmərəli kadr siyasətinin nəticəsi olaraq həm Avropa Şurası, həm də Azərbaycanın tarixində ilk dəfə olaraq Azərbaycan nümayəndəsi Avropa Şurası kimi nüfuzlu beynəlxalq regional təşkilatın ədliyyə və məhkəmə sahəsində mühüm hüquq təsisatına - Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasına təkrarən rəhbər seçilib.

### Ölkəmizin Avropa hüquq məkanında layiqli təmsilçisi

Avropa Şurasının "Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi üzrə" İşçi Qrupunun altı ekspert üzvündən biri olmuş Ramin Qurbanov İsveçrə, Estoniya, Kipr, Slovakiya və Gürcüstanın məhkəmə sistemlərinin qiymətləndirilməsində iştirak edib. O, həmçinin Litva, Latviya, Moldova, Çexiya və Şimali Makedoniyaya göndərilən monitorinq qruplarına rəhbərlik edib. Azərbaycanın mütərəqqi məhkəmə-hüquq islahatları və onun səmərəli fəaliyyəti nəticəsində 2014-cü ildə SEPEJ-in 47 üzv dövlətinin ədliyyə, məhkəmə, prokurorluq və vəkillik üzrə 100-dən çox yüksək vəzifəli nümayəndəsinin iştirakı ilə ilk dəfə Strasburqdan kənarda - məhz Bakıda plenar iclası keçirilib. İclasda Avropa ölkələrinin məhkəmə sistemlərinin qiymətləndirilməsinə dair 2014-cü il tarixli irihəcmli Avropa hesabatı təsdiq olunub. SEPEJ-ə üzv 47 dövlətin iştirakı ilə baş tutmuş plenar iclasda Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsinə dair Avropa Hesabatının qəbulu mühüm hadisə kimi tarixiləşib. Sonrakı mərhələdə bu hesabata məhz "Bakı hesabatı" kimi istinad edilib.

Azərbaycanlı hüquqşünas-alim Avropa Şurası tarixində ilk dəfə olaraq "Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası: elmi və təcrübi əhəmiyyəti" adlı 22 nömrəli elmi nəşrin Fransa və İsveçrə alimləri ilə (professorlar Jan-Pol Jan, Fransua Peşer, Jak Büllerlə) birgə hazırlanmasına və Azərbaycanda aparılan məhkəmə-hüquq islahatlarının nümunə kimi göstərilməsi ilə ingilis və fransız dillərində 47 Avropa ölkəsinin razılığı əsasında nəşrinə nail olub.

Ramin Qurbanovun prezident seçilməsi ilə SEPEJ-ə əsasən Qərbi Avropa ölkələrinin (əvvəllər Almaniya, İtaliya, İngiltərə, Avstriya) nümayəndələrinin rəhbərlik etməsi ənənəsinə də son qoyulub. Ümumiyyətlə isə, SEPEJ-in rəhbər orqanlarına - prezident, vitse-prezident və iki sadə üzvlüyə seçkilər çox gərgin rəqabət şəraitində keçir. Xüsusilə sədrliyə namizəd şəxslərin Avropa dəyərlərinə sadiqliyi, yüksək mənəvi keyfiyyətləri, nüfuzu, əmək fəaliyyəti, eləcə də qurumun fəaliyyətinə verdiyi sanballı töhfələr və digər amillər ciddiliklə nəzərə alınır. Azərbaycanın nümayəndəsi Ramin Qurbanovun Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının işinə verdiyi layiqli töhfələrinə görə təşəkkür elan olunmuş ilk hakim olması bu baxımdan hər bir azərbaycanlı üçün qürurverici fakt kimi vurğulanmalıdır.

### Mütərəqqi islahatların məntiqi nəticəsi

Ramin Qurbanov verdiyi müsahibəsində bu əlamətdar hadisəni respublikamızın böyük uğuru kimi dəyərləndirdi. SEPEJ-in rəhbəri son 15 ildə Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən, insan amilini önə çəkən mütərəqqi məhkəmə-hüquq islahatlarının Avropa məkanında müsbət qarşılandığını və ölkəmizin nüfuzunun yüksəlməsinə əsaslı təkan verdiyini qeyd etdi: "Bu mühüm nailiyyət Ümummilli Lider Heydər Əliyevin siyasətini bütün sahələrdə yeni dövrün tələblərinə uyğun davam etdirən Prezident cənab İlham Əliyevin 2004-cü ildən etibarən məhkəmə-hüquq sisteminə yeni baxış və yanaşması, ardıcıl və sistemli islahatlar strategiyası həyata keçirməsi ilə şərtlənir. Dünya bu uğurlu fəaliyyət modelini görür, qəbul edir və qiymətləndirir.

Eyni zamanda ölkəmizin mədəni irsinin dünyaya tanıtdırılması məqsədilə genişmiqyaslı tədbirlərin davamlı olaraq uğurla icra edilməsi xüsusilə vurğulanmalıdır. Avropa cəmiyyətində azərbaycanlılar barədə düzgün rəyin formalaşması istiqamətində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var. Ölkəmizin həyatında yüksək fəallıq göstərən Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinə, təhsilinə, səhiyyəsinə göstərdiyi qayğı və diqqət bütün dünyada, o cümlədən Avropa ölkələrində də yüksək qiymətləndirilir və bu öz növbəsində Avropa cəmiyyətində Azərbaycanın qədim tarixi və mədəniyyəti haqqında haqlı və dolğun təəssürat yaratmışdır".

### Ölkəmizin haqq işi Avropada dəstəkləndi

Fransa, Niderland, Belçika, Lixteyşteyn kimi Avropa ölkələrinin qanunverici orqanlarının 44 günlük Vətən müharibəsindəki layiqli zəfərdən sonra Azərbaycana qarşı qəbul etdikləri qərəzli və əsassız qətnamələr fonunda azərbaycanlı hakimin 2020-ci ilin dekabr ayında yenidən SEPEJ-in prezidenti seçilməsi xüsusilə diqqətçəkici məqamdır.

Azərbaycan təmsilçisinin yüksək bilik və bacarıqları, Avropa Şurasındakı nüfuzu rəhbər tutularaq ona 2020-ci il dekabr ayının 8-də 47 üzv dövlətin nümayəndələri tərəfindən etimad göstərilməsini şərtləndirib. Azərbaycan nümayəndəsinin növbəti iki il müddətində 47 Avropa dövlətində, o cümlədən Ermənistanda aparılan məhkəmə-hüquq islahatlarına nəzarət funksiyasına rəhbərlik etməsi qürurverici olmaqla yanaşı, beynəlxalq arenada növbəti uğurumuzdur.

Hüquq ictimaiyyətində ədalətli hakimlərdən biri kimi tanınan və ən çox bəraət hökmləri verən Ramin Qurbanov bu uğuru ölkəmizin Avropa Şurasındakı yüksək nüfuzu ilə yanaşı, həm də Vətən müharibəsindəki haqlı mövqeyi ilə izah edir: "Azərbaycanın 27 il kağız üzərində qalmış BMT qətnamələrinin hərbi-siyasi yolla icra etməsi və beynəlxalq hüquq normalarının bərpasına nail olması əksər Avropa ölkələri tərəfindən ədalətin bərpası kimi qiymətləndirilir. Təmsil etdiyim qurum çərçivəsində son zamanlar keçirdiyim müxtəlif görüşlər və söhbətlər zamanı ölkəmizə qarşı obyektiv və dürüst münasibətin şahidi oldum və bundan böyük qürur hissi keçirdim.

Bir sıra Avropa ölkələrinin parlamentlərinin qəbul etdiyi son qərəzli qətnamələr, əslində, bu ölkələrin rəhbərliyində təmsil olunan yüksək vəzifəli şəxslərin mövqeyi kimi qəbul olunmamalıdır. SEPEJ sədrliyinə təkrar namizədliyimin həmin ölkələrin nümayəndələri tərəfindən qərəzsiz və ədalətli şəkildə dəstəklənməsi və qiymətləndirilməsi də bunun əyani nümayişi idi".

Ramin Qurbanov hesab edir ki, dövlət başçısının rəhbərliyi ilə son 17 ildə hücum xətti üzərində yürüdülən çevik və məharətli xarici siyasət və diplomatiya, habelə səmərəli təbliğat strategiyası 44 günlük Vətən müharibəsində Azərbaycanın ədalətli mövqeyinin dəstəklənməsini təmin edib. O bildirir ki, uzun illər ərzində Azərbaycanın iqtisadi cəhətdən güclənməsi, müzəffər Ordumuzun hərbi-texniki təchizatının, şəxsi heyətin peşəkarlıq səviyyəsinin, döyüş hazırlığının yüksəldilməsi Ermənistan üzərində layiqli qələbəni təmin edib: "2003-cü ildən etibarən ölkə rəhbəri olaraq cənab İlham Əliyevin yürütdüyü mahir xarici siyasət müxtəlif beynəlxalq təşkilatlarda, o cümlədən Avropa Şurasında Ermənistanın işğalçı dövlət kimi tanınması və onun əleyhinə xeyli sayda ifşaedici sənədin qəbulu ilə nəticələnib. Prezident İlham Əliyevin fəal və peşəkar diplomatik addımları, xarici ölkələrə çoxsaylı səfərləri, görüşləri, çıxışları nəticəsində nəinki Avropa ölkələrində, ümumən dünyada Ermənistanın işğalçı siyasətinin mahiyyəti barədə dolğun təsəvvür mövcuddur".

### Heç bir beynəlxalq təşkilat əleyhimizə bəyanat vermədi

Ramin Qurbanov vurğulayır ki, ölkə rəhbərinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin milli maraqlara və beynəlxalq hüquq normalarına uyğun həlli istiqamətində diplomatik, siyasi və hərbi fəaliyyəti 2020-ci ildə tarixi Zəfərin əldə olunmasına etibarlı zəmin formalaşdırıb: "2020-ci il bu baxımdan bir sıra mühüm hadisələrlə zəngin olub. Fevral ayının 15-də Münhen Təhlükəsizlik Konfransında təşkil edilmiş debatda Azərbaycan Prezidenti İlham Əliyevin baş nazir N.Paşinyanı ciddi fakt və arqumentlərlə susdurmasını, iyun ayının 18-də Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatlı sammitində Ermənistanın danışıqları pozmasını xüsusi qeyd etməsi, sentyabr ayının 21-də BMT-nin videokonfrans formatlı 75-ci sessiyasında kəskin və qətiyyətli çıxışı, nəhayət, iyulun əvvəlində Tovuz təxribatına cavab kimi düşmənə layiqli hərbi zərbələr endirmək barədə göstəriş verməsi xüsusi qeyd edilməlidir. Bu və digər uğurlu siyasi gedişlərin nəticəsi olaraq, Azərbaycanın sentyabrın 27-dən etibarən başladığı əkshəmlə əməliyyatlarına aparıcı region ölkələrinin neytral və obyektiv münasibəti təmin olundu. Eyni zamanda xarici ölkələr Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini açıq ifadə etdilər, nə 44 günlük Vətən müharibəsi günlərində, nə də sonrakı mərhələdə hansısa beynəlxalq təşkilat Azərbaycan əleyhinə qərəzli bəyanat və ya ittihamla çıxış etmədi. Yanvarın 11-də isə Rusiya Federasiyası Prezidentinin vasitəçiliyi ilə Azərbaycan Prezidenti cənab İlham Əliyev və Ermənistanın baş naziri N.Paşinyan arasında baş tutan növbəti görüş, habelə imzalanmış növbəti üçtərəfli Bəyanat ölkəmizin müharibədəki tarixi zəfərinin əyani təsdiqi və diplomatik nailiyyəti oldu".

SEPEJ prezidenti onu da diqqətə çəkir ki, insan hüquqlarının və demokratik azadlıqların təminatı sahəsində ciddi problemləri olan Ermənistanın məhkəmə-hüquq sistemi də acınacaqlı vəziyyətdədir: "Maraqlı bir fakt da qeyd edilməlidir ki, Avropa Şurasının 47 üzv dövlətində ədalət mühakiməsinin həyata keçirilməsi, məhkəmə müstəqilliyinin pozulması və aidiyyəti məsələlərə dair şikayətlər bu komissiyaya ünvanlanır. Məsələn, 2020-ci ilin yanvar ayında Ermənistan Respublikasının müxtəlif qeyri-hökumət təşkilatları hazırkı baş nazirin məhkəmə sisteminə müdaxiləsi, "Mənim addımım" fraksiyasının əksər nümayəndələrinin Konstitusiyaya düzəliş edilməsi ilə bağlı müraciət etmələri, Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyana qarşı cinayət işinin qaldırılması, onun hakim toxunulmazlığı hüququnun pozulması, yeddi hakimin məhkəmədən uzaqlaşdırılması cəhdi ilə bağlı bizə şikayət ediblər".

### İnsan amili ön plandadır

Ramin Qurbanov xüsusi vurğulayır ki, son 15 ildə ölkədə məhkəmə-hüquq islahatlarının uğurla reallaşmasında xüsusi rol oynayan Məhkəmə-Hüquq Şurasının həyata keçirdiyi islahatlar ardıcıl və sistemli xarakteri ilə istər ölkə daxilində, istərsə də xaricində diqqəti cəlb edib. Bəzi Avropa ölkələrindən fərqli olaraq bu gün Azərbaycanda məhkəmə hakimiyyətinin müstəqilliyini təmin edən müasir qanunvericilik bazası formalaşıb, məhkəmə orqanlarında hakim korpusunun sağlamlaşdırılması və yeniləşdirilməsi, seçim prosesinin şəffaf və ədalətli meyarlar əsasında həyata keçirilməsi vacib istiqamətlərdən biri kimi müəyyənləşdirilib".



CEPEJ-in prezidenti Ramin Qurbanov və Fransa Ali Məhkəməsinin sədr müavini Jean-Paul Jean Ədliyyənin Kristal Tərəzisi müsabiqəsi üzrə 2019-cu ilin qaliblərini elan edərkən

SEPEJ rəhbəri onu da bildirir ki, Azərbaycanda 2004-cü ildən geniş vüsət almış islahatların əsas hədəfi məhkəmə-hüquq sistemini ölkənin dinamik inkişaf tempinə uyğun olaraq müasirləşdirmək, məhkəmə orqanlarının özünüidarə imkanlarını genişləndirmək və ədalət mühakiməsinin səmərəliliyini artırmaqdır. Bu istiqamətdə mühüm addımlardan biri hələ 2004-cü ildə Məhkəmə-Hüquq Şurası haqqında qanunun qəbulu və həmin qanun əsasında Məhkəmə-Hüquq Şurasının yaradılması olub: "Demokratik cəmiyyətlərdə mühüm yer tutan bu təsisatın yaradılmasında əsas məqsəd məhkəmə sisteminin müstəqilliyini, məhkəmələrin özünüidarə funksiyalarını gücləndirməkdir.

2005-ci ildən fəaliyyət göstərən Məhkəmə-Hüquq Şurası ötən 15 ildə müstəqil məhkəmə sisteminin təmin edilməsi, məhkəmələrin işinin və vakant hakim vəzifələrinə namizədlərin seçilməsinin təşkili, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, onların iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi və digər məsələlərin reallaşdırılmasını uğurla təmin edib".

Ramin Qurbanov qeyd edir ki, "SEPEJ Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsinə dair iki ildən bir hazırladığı irihəcmli hesabatlarında müxtəlif meyarlar üzrə Avropa ölkələrinin məhkəmə və ədliyyə sistemlərinin fəaliyyətini qiymətləndirir, Avropada mövcud olan vəziyyəti və tendensiyaları təhlil edir. Bu göstəricilərdən biri də Avropa ölkələrində məhkəmələrin ümumi iş yükü, əhalinin sayına nisbətdə hakimlərin, prokurorların, vəkillərin sayının müəyyənləşdirilməsidir. Ötən ilin oktyabr ayında dərc olunmuş hesabata görə Avropa ölkələrində yüz min əhaliyə düşən hakimlərin orta sayı 21, prokurorların orta sayı 12, vəkillərin orta sayı 164 olmuşdur. Ümumiyyətlə, hakimlərin iş yükünün səmərəli tənzimlənməsi ədalət mühakiməsinin həyata keçirilməsinin keyfiyyətinə və vətəndaşların məhkəmə sisteminə inamına birbaşa təsir edən amillərdən biridir.

Dövlət başçısının 19 yanvar 2006-cı il tarixdə imzaladığı Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi ilə bağlı fərmanında Məhkəmə-Hüquq Şurasına tövsiyələrdən biri də məhz məhkəmələrdə hakimlərin sayının artırılması ilə bağlı idi: "Bu məqsədlə Azərbaycanda artıq avropalıların da etiraf etdiyi kimi, ən mütərəqqi seçim qaydaları tətbiq edilib. "Məhkəmə-Hüquq Şurası haqqında" və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq Məhkəmə-Hüquq Şurası tərəfindən təsis olunmuş Hakimlərin Seçki Komitəsi də bu istiqamətdə səmərəli fəaliyyəti ilə seçilib. Komitə hakimliyə iddialılar üçün 2005-ci ildən çoxmərhələli prosedurlarla test üsulu ilə, habelə yazılı və şifahi imtahanlar təşkil edib, sonrakı mərhələdə onlar müvafiq tədris kurslarına cəlb olunub".

Ölkə rəhbərinin müvafiq fərmanları ilə hakim ştatlarının sayı son 15 ildə 3 dəfəyədək artırılaraq 800-ə çatdırılıb. Hakimlərin işinin asanlaşdırılması, habelə vətəndaşlara göstərilən xidmətlərin yaxşılaşdırılması məqsədilə məhkəmə aparatı işçilərinin sayının 75 faizdən çox artırılması, hər bir hakimə ayrıca köməkçi ştatının ayrılması da səmərəli nəticələr verib. Ümumiyyətlə, hakim vəzifəsinə namizədlərin şəffaf şəraitdə, ən müasir beynəlxalq tələblər səviyyəsində seçimi nəticəsində son illərdə 4000-dən çox namizəd arasından 400-dən çox yüksək hazırlıqlı hüquqşünas seçilərək hakim vəzifələrinə təyin olunub. Bunun nəticəsidir ki, ölkə üzrə hakim korpusunun 60 faizini, Bakı şəhəri üzrə 80 faizini, apellyasiya instansiyaları məhkəmələrində isə yarıya qədərini məhz bu cür şəffaf seçimlərdən müvəffəqiyyətlə keçərək təyin olunmuş yeni nəsil hakimlər təşkil edirlər.

### Yeni dövrün diktə etdiyi islahatlar

Son illər hakimlərin müstəqilliyinin artırılması məqsədilə onların təyinat müddətinin artırılması istiqamətində də mühüm addımlar atılıb. Əvvəllər hakimlər birinci instansiya məhkəmələrinə 5 il, yuxarı instansiya məhkəmələrinə 10 il müddətinə təyin edilirdilər. Məhkəmə-Hüquq Şurası tərəfindən aparılan məhkəmə islahatları nəticəsində artıq hakimlərin ən yüksək həddədək - müddətsiz təyinatı, yeni pensiya yaşınadək müəyyən olunub, habelə seçim prosedurları təkmilləşdirilib.

Bu islahatların Avropa Şurasına üzv ölkələr tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdıran Ramin Qurbanov Ədliyyə Nazirliyi "Elektron məhkəmə" informasiya sisteminin formalaşdırılması və tətbiqi üzrə İşçi Qrupunun rəhbəri kimi bildirir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2014-cü il 13 fevral tarixli "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" sərəncamı vətəndaş məmnunluğuna səbəb olan müasir, sivil və şəffaf xidmətlərin məhkəmə orqanlarının fəaliyyətində geniş tətbiqinə imkan yaradıb: "Məhkəmələri əhatə edən bu müasir sistem vətəndaşların məhkəmələrlə münasibətlərinin daha çevik və işlək mexanizmlər əsasında qurulmasına, işlərə baxılmasında qanunvericiliyin tələblərinə tam riayət olunmasına imkan yaradıb, operativliyi və şəffaflığı maksimum səviyyədə təmin edib, vətəndaşların məhkəmələrə əlçatımlığını xeyli asanlaşdırıb. Bu sistemin formalaşması zamanı bir çox ölkələrin müsbət təcrübələri öyrənilib, ölkəmizin hüquq sisteminin milli ənənələri nəzərə alınıb və bu sistemin beynəlxalq səviyyədə tanınması təmin olunub.

"Elektron məhkəmə" informasiya sisteminin tərkib hissəsi olan "Məhkəmənin nəbzi: İdarəetmədə inqilab" adlı bölməsi 2017-ci ildə məhkəmə sisteminin tarixində ilk dəfə olaraq Avropa Şurasının ekspertləri tərəfindən məhkəmə fəaliyyətində elektron idarəetmənin tətbiqi baxımından ən mütərəqqi sistem kimi qiymətləndirilərək "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsində mükafata layiq görülüb.

Bununla yanaşı, ötən illər ərzində məhkəmə sisteminin mülki sahədə iş yükünün böyük hissəsini təşkil edən əmr icraatı qaydasında baxılan işlərin süni intellekt vasitəsilə həlli məqsədilə "İpək yolu" layihəsi uğurla həyata keçirildi və məhkəmə sisteminin tarixində ilk dəfə olaraq bu növdən olan mülki işlər tamamilə hakimlərin üzərindən götürüldü və onların əvəzinə məhkəmə işlərinə sistem tərəfindən baxılaraq elektron qaydada məhkəmə qərarlarının verilməsi təmin olundu. Məhkəmə proseslərinin rəqəmsallaşdırılması sahəsində Azərbaycanın gördüyü bu mütərəqqi işlər müxtəlif beynəlxalq təşkilatların və bir çox ölkələrin diqqətini cəlb etdi. Qürurverici haldır ki, 2018-ci ildə Azərbaycanın bu təcrübəsi Dünya Bankının "Dövlət sektorunun səmərəliliyinin artırılması" adlı beynəlxalq hesabatında dünya üzrə müsbət 14 layihədən biri kimi qəbul olundu".

Eyni zamanda qeyd olunmalıdır ki, Birləşmiş Millətlər Təşkilatının Dünya Bankı Qrupunun vacib nəşrlərindən hesab edilən "Doing Business" ("Biznesin asanlaşdırılması") Hesabatında ölkəmizin son nailiyyətlərinin əldə olunmasında "Elektron məhkəmə" informasiya sisteminin formalaşdırılması və uğurlu tətbiqinin də böyük rolu olmuşdur. "Doing Business" Hesabatının "Müqavilələrin icrası" indikatoru üzrə Azərbaycanın milli məruzəçisi olan Ramin Qurbanov bildirib ki, "ölkəmizin dünyanın mühüm inkişaf institutu olan Dünya Bankı ilə sıx əməkdaşlığının 29 illik tarixi vardır və bu təşkilat Azərbaycanda həyata keçirilən genişmiqyaslı islahatlara daim dəstək verir.

Azərbaycanda iqtisadiyyat, mədəniyyət, incəsənət, təhsil, hüquq sahələrində ardıcıl aparılan və məqsədyönlü xarakter daşıyan islahatlar beynəlxalq ictimaiyyətin və nüfuzlu beynəlxalq təşkilatların diqqətindən yayınmır. Ölkəmizdə, xüsusilə sosial-iqtisadi sahədə həyata keçirilən islahatlar paketi öz mütərəqqi nəticələrini verir və bu nəticələr beynəlxalq qurumların reytinqlərində də öz əksini tapır. Qürurverici haldır ki, ölkə rəhbərliyinin apardığı mütərəqqi islahatlar nəticəsində dünyada biznes durumunun dəyərləndirilməsində ən çox istinad edilən beynəlxalq mənbə sayılan "Doing Business" hesabatındakı reytinqi 3 göstərici üzrə yenilənib, qlobal reytinq sıralamasında mövqeyi 191 ölkə arasında 28-ə yüksəlib və bu irəliləmə nəticəsində Azərbaycan Dünya Bankı tərəfindən "dünyanın ən islahatçı ölkələrindən biri" kimi qiymətləndirilib.

Məlumat üçün bildirilir ki, müqavilələrin icrası indikatoru üzrə "Doing Business" hesabatında "Hüquqi proseslərin keyfiyyəti indeksi" vasitəsilə hər bir ölkənin öz məhkəmə sistemində aşağıdakı dörd sahə üzrə yaxşı təcrübələrin tətbiq edilib-edilmədiyi müəyyən edilir: məhkəmə strukturu və prosesləri, məhkəmə işinin idarə edilməsi, avtomatlaşdırılmış (rəqəmsal) məhkəmə sistemi və mübahisələrin alternativ qaydada həlli. Müvafiq sub-indikator üzrə aparılmış diaqnostik yoxlamalar nəticəsində Azərbaycanın göstəricisi 6,5 baldan 10,5 bala kimi artmışdır. Bununla da, ölkədə "Elektron məhkəmə" informasiya sisteminin tərkib hissələri olan kommersiya mübahisələri üzrə elektron icraatın tətbiqi, elektron qaydada iddiaların verilmə imkanın yaradılması, elektron kiçik iddialar sisteminin istifadəyə verilməsi, məhkəmə proseslərinin elektron təyini, hakimlər və vəkillər üçün elektron menecment sisteminin tətbiqi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi kimi bir sıra mühüm islahatların aparılması Dünya Bankı tərəfindən təsdiq olundu. Bu sahədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən görülmüş genişmiqyaslı işlər və mütəmadi hazırlanmış iqtisadi islahatların icmalları xüsusi qeyd olunmalıdır".

Müsahibimiz xüsusi vurğulayır ki, Azərbaycanın məhkəmə-hüquq sistemi yeni çağırışlara və cəmiyyətin inkişaf dinamikasına adekvat olaraq müasirləşdirilir, qanunverici və institusional islahatlar səmərəli nəticələr verir: "Azərbaycan Prezidenti cənab İlham Əliyevin 3 aprel 2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərmanı isə məhkəmə-hüquq sistemində, sözün əsl mənasında, inqilabi islahatların əsasını qoyub, onların xəritəsini müəyyən edib. Fərmanda hakimlərin sayının 200 nəfər artırılması, məhkəmələrin fəaliyyətində yeni texnologiyaların tətbiqi - məhkəmə qərarlarının icrasının elektronlaşdırılması, elektron məhkəmə sisteminin tətbiqinin davam etdirilməsi, özəl icra sisteminin yaradılması, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması, məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi və belə müdaxiləyə görə məsuliyyətin artırılması, hakimlərin sosial müdafiəsinin və fərdi müstəqilliyinin gücləndirilməsi məqsədilə onların maddi təminatının əhəmiyyətli dərəcədə artırılması və digər konseptual mühüm məsələlər əksini tapıb.

Qısa müddətdə fərmanda yer almış tövsiyə və tapşırıqların böyük əksəriyyətinin uğurla reallaşdırılması, şübhəsiz, beynəlxalq arenada da yüksək qiymət alır".

*Avropa qitəsində insan hüquqlarını müdafiə edən aparıcı regional təşkilat olan Avropa Şurası çərçivəsində Ramin Qurbanovun qazandığı uğur ölkəmiz üçün təbliğati-siyasi baxımından da əhəmiyyətlidir. Bu fakt bir daha göstərir ki, Avropa ölkələrində ölkəmizin məhkəmə hüquq-sistemində həyata keçirilən mütərəqqi islahatlarla bağlı yetərincə dolğun və obyektiv təəssürat formalaşıb.*

*Sevindirici haldır ki, TAP, TANAP kimi strateji əhəmiyyətli layihələrlə Avropanın dayanıqlı enerji təhlükəsizliyinə layiqli töhfələr verən Azərbaycan, eyni zamanda bu geosiyasi məkanda məhkəmə-hüquq islahatlarının mütərəqqi xarakteri ilə diqqət mərkəzindədir.*

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# İslahatların intellektual tutumu dərinləşir

*Əvvəli 1-ci səh.*

Yeni agentlik ölkədə sənaye parklarının, sənayə məhəllələrinin və aqroparkların fəaliyyətinin təşkili, onların idarə olunması və inkişafı ilə bağlı tədbirlərin hazırlanıb həyata keçirilməsini təmin edəcək, bu istiqamətdə göstərilən dövlət dəstəyi tədbirlərində iştirak edən publik hüquqi şəxs statusunu daşıyacaq.

Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün 7 üzvdən ibarət Müşahidə Şurası yaradılmışdır. Şuranın dörd üzvü İqtisadiyyat Nazirliyi, üç üzvü isə hər qurumdan bir nəfər olmaqla Kənd Təsərrüfatı Nazirliyi, "Azərişıq" və "Azərsu" ASC-lərdəndir. Müşahidə Şurasının sədri və idarə heyətinin üzvləri iqtisadiyyat naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

İqtisadçılar Prezident İlham Əliyevin fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyindəki "Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin əsasında publik hüquqi şəxs statuslu İqtisadi Zonaların İnkişafı Agentliyi yaradılmasını ölkə iqtisadiyyatının daha uğurlu inkişafı üçün atılan zəruri addım kimi dəyərləndirirlər.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) departament rəhbəri Ayaz Müseyibov dövlət başçısının bu qərarının iqtisadi zonaların idarəedilməsi sahəsində müasir dünya təcrübəsi ilə vəhdət təşkil edən addım olduğunu bildirir: "İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin yaranması ölkədəki mövcud sənaye parkları, sənaye məhəllələri və aqroparklar sahəsində idarəetməni, habelə nəzarət mexanizmlərini daha da təkmilləşdirmək, bu sahədə həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq, daha sıx koordinasiyanı və sistemliyi təmin etmək üçün xüsusi əhəmiyyət kəsb edir". Göründüyü kimi, sözügedən agentlik parkların, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı yeni tənzimləyici və idarəetmə mexanizmlərinin formalaşdırılmasına səbəb olacaq.

Onu da qeyd edək ki, fərmanda bu iqtisadi subyektlərin fəaliyyətinin qiymətləndirilməsi və onların səmərəliliyinin artırılması barədə təkliflərin hazırlanması da nəzərdə tutulmuşdur. Sənaye parkları, sənaye məhəllələri və aqroparkların işinin səmərəli, yeni tənzimləyici və idarəetmə sistemləri çərçivəsində təşkili, həmçinin ölkəyə sərmayə axınını gücləndirəcək, ixracın genişlənməsinə və yeni iş yerlərinin yaradılması prosesinə təkan verəcək.

Ayaz Müseyibovun şərhində o da qeyd olunur ki, 4-cü sənaye inqilabının texnologiyalarının ölkəyə transfer edilməsi baxımından da yeni islahat tədbiri mühüm əhəmiyyət kəsb edir. Xüsusi ilə də bio, fiziki və rəqəmsal texnologiyalarının tətbiqində yeni agentlik və formalaşmış qanunvericilik bazası mühüm rol oynayacaq.

İİTKM-in təqdim etdiyi şərhdə o da qeyd olunur ki, iqtisadi artımın əsas drayverlərindən biri kimi müvafiq sahənin inkişafı həmişə diqqət mərkəzindədir. Aidiyyəti istiqamətlərdə qanunvericilik, inzibati və investisiya məsələləri üzrə dəstək siyasəti realizasiya edilmişdir. Örnək olaraq, müvafiq qanunvericiliyə əsasən, parkların ərazisində 10 il ərzində korporativ vergi üzrə 50 faiz güzəşt, idxal olunan avadanlıqlara, texnoloji vasitələrə görə ƏDV-dən, idxal olunmuş avadanlıqlara, texnoloji vasitələrə görə gömrük rüsumu, həmçinin torpaq və mülkiyyət vergisindən azad olunma nəzərdə tutulmuşdur.

Müvafiq dəstək siyasətinin nəticəsidir ki, indiyədək sənaye parklarına 3,5 milyard ABŞ dolları investisiya yatırılmış, 3,3 milyard manatlıq satış həyata keçirilmiş və 25 faiz məhsul ixrac olunmuşdur.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Biz birlikdə güclüyük!

# Yumşaldılmış karantin qaydalarına əməl etmək hər bir vətəndaş üçün önəmlidir

*Əvvəli 1-ci səh.*

Bakı da daxil olmaqla Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərlərinə və Abşeron rayonunun ərazisinə, eləcə də Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Quba, Xaçmaz, Yevlax, Bərdə, Biləsuvar və İsmayıllı rayonlarına giriş-çıxış bərpa olunub. Rayon və şəhərlərarası gediş-gəlişə nəzarət edən postlar ləğv edilib. Yaşayış yerini və olduğu yeri SMS icazə və xidməti vəsiqə əsasında tərk etmək sistemi aradan götürülüb.

Fevralın 1-dən isə ölkə ərazisində ictimai iaşə obyektləri, eləcə də restoran, kafe və çay evləri, habelə bu kimi digər məkanlarda müştərilərə saat 6-dan gecə saat 12-yədək yerində xidmətlərə icazə veriləcək. Bütün ölkə ərazisində, Bakı da daxil olmaqla, şənbə və bazar günləri ictimai nəqliyyatın fəaliyyətinə tətbiq olunan məhdudiyyət, eləcə də digər qadağalar xüsusi karantin rejiminin sonunadək qüvvədədir. Xüsusi karantin rejiminin qüvvədə olduğu müddətdə ölkə üzrə bütün qapalı və açıq məkanlarda tibbi maskalardan istifadə məcburidir. Həmçinin sosial məsafə, tibbi maska və digər qoruyucu vasitələrdən istifadə etmək mütləqdir. Odur ki, fəaliyyətinə icazə verilən iş və xidmət sahələrində pandemiya dövrü ilə əlaqədar müəyyən edilmiş məhdudiyyət və tələblərə ciddi riayət olunmalıdır.

Pandemiyanın yumşaldıcı tələb və tövsiyələrinə, peyvəndləmə əməliyyatına baxmayaraq, ölkə ərazisində bu amansız virusa qarşı mübarizə tədbirləri mütəmadi olaraq davam etdirilir. Yanvarın 24-ü və 25-i şənbə və bazar günləri Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Lənkəran, Şirvan, eləcə də digər ərazilərdə dezinfeksiya işləri aparılıb. İcra hakimiyyətlərinin aidiyyəti struktur bölmələri səhər saatlarından əsas küçə, prospekt və yollarda, eləcə də ətraf kənd və qəsəbələrdə kommunal təsərrüfat xidmətlərinin texnikası və əməkdaşları tərəfindən xüsusi kimyəvi maddələrlə növbəti dezinfeksiya işləri həyata keçirmişlər. İşin çoxluğu, habelə onun keyfiyyətli və səmərəli olması nəzərə alınaraq dezinfeksiya tədbirləri iki gün davam etdirilib. Yanvarın 24-ü və 25-də şənbə və bazar günləri Bakı ŞİH-nin yerli strukturları tərəfindən mərkəzi küçələrlə yanaşı, paytaxtın qəsəbə və kənd yollarında, habelə yaşayış massivlərinin ətrafında da dezinfeksiya işləri aparılıb. Bu zaman istifadə edilən maddələrin qəbul olunmuş müəyyən toksikliyini nəzərə alaraq sakinlərə əvvəlcədən imkan daxilində küçəyə çıxmamaq barədə xəbərdarlıq edilmişdir. Bu sahədə Bakı şəhəri Mənzil Kommunal Təsərrüfatı Departamenti 1, 2 və 3 saylı Xüsusi Təyinatlı Mənzil Kommunal Təsərrüfatı Birliyi işçilərinin fəallığı diqqətçəkən olmuşdur. Birliyin rəisi Cavanşir Alaverdizadə ilə iş üstündə görüşdük. O bildirdi ki, birliyin işçiləri ötən ayların təcrübəsinə əsasən tapşırılan işə daha məsuliyyətlə yanaşırlar. Mühəndis Məhəmməd Qəhrəmanovun və Mirnağı Fəttayevin rəhbərliyi altında şəhərin görməli və həmişə insan çoxluğu ilə seçilən Heydər Əliyev Mərkəzinin ətrafında, Təbriz, Molla Cümə, Ələşrəf Əlizadə, Ağaoğlu, Fətəli xan Xoyski küçələrində növbəti dezinfeksiya işləri aparılmışdır. Sahənin əməkdaşlarından Faiq İsmayılov, Məleykə Əliyeva, Bağır Fəttayev, Rövşən Məlikov, Vəfa Əliyeva, Ayət Əbülfətov və digərləri balansımızda olan yaşayış binalarında, liftlərdə, həyət və yaşayış məhəllələrində, idman-əyləncə qurğularında, məişət tullantılarının atıldığı konteyner meydançalarında xüsusi qrafikə uyğun olaraq tibbi-profilaktik və dezinfeksiyaedici tədbirləri yüksək səviyyədə həyata keçiriblər. Əsas məqsəd vətəndaşlarımızın virusa yoluxmasının qarşısını almağa nail olmaqdır.

Tibb elmləri doktoru, professor Misir Bayramovun açıqlamasına görə, soyuqlu-küləkli günlərdə, eləcə də yazqabağı yağışlı havalarda dezinfeksiya işləri lokal xarakter daşıyır. Odur ki vətəndaşlarımız yumşaldıcı tədbirlərin onlara verdiyi üstünlüklərdən səmərəli istifadə etməklə koronavirusun yayılmasına imkan verməmək üçün karantin qaydalarına mümkün qədər ciddi riayət etməlidirlər. Dəfələrlə deyildiyi kimi, insanlar qaydalara lazımınca riayət etsələr, bu xəstəliyin məsuliyyətini və qəfil gələn faciəsini dərindən dərk etsələr, bir sözlə, laqeydliyik göstərməsələr, infeksiyanın yayılma sürətini azaltmış olarlar. Təbii ki, bu da ölkəmizdə koronavirus infeksiyasına yoluxma və ölüm hallarının qarşısını alar. Müşahidələrdən göründüyü kimi, Bakıda, eləcə də respublikamızın bölgələrində virusa yoluxanların sayı get-gedə azalmaqdadır. Lakin yenə də infeksiyanın yayılma sürətini minimuma endirməli, peyvəndləmədə fəallıq göstərməli, yüngülləşdirici qaydaların tətbiqinə ciddi riayət edilməlidir.

Qışın sonu - yazın əvvəllərində, yəni fəsil dəyişməsi zamanı virus infeksiyalarına yoluxma riskinin yüksək olduğunu nəzərə çatdıran professor onu da qeyd etdi ki, bu fəsillərdə soyuqlama zamanı insanlarda qrip xəstəliyinin əlamətləri də müşahidə edilir. Bu halda işlər bir az da çətinləşir. Bu baxımdan yüngül geyim də kəskin küləkli havalarda qrip, soyuqlama koronavirus xəstəliyini daha da ağırlaşdıra bilir. Odur ki, diqqətli olmaq gərəkdir.

Alim daha sonra bildirdi ki, qrip xəstəliyi özü xüsusi diaqnoz tələb edir. COVID-19 kimi qrip xəstəliyinə də diaqnoz yalnız PSR müayinəsi əsasında qoyulur: "Lakin əvvəllər də belə olub ki, qripə əlamətlərinə görə klinik diaqnoz qoyulub və bu, xəstəlik vərəqəsində tənəffüs yollarının infeksiyası kimi qeyd edilirdi. Amma COVID-19 diaqnozu klinik deyil, yalnız PSR müayinəsindən sonra qoyulur. Hava-damcı yolu ilə keçən viruslar uşaqdan böyüyə hamını bu xəstəliyə yoluxdura bilir. Amma bir məsələ daim diqqətdə saxlanılmalıdır ki, insan yoluxduğu zaman səhhətində hər hansı qeyri-adi hal hiss edərsə, tibbi yardım üçün mütləq sahə həkiminə müraciət etməlidir. Hamı nəzərdə saxlamalıdır ki, sosial məsafəni qoruyan, gigiyenik qaydalara əməl edən insanlara virus az miqdarda keçə bilir. Beləələri xəstələnmədən virusa qarşı immunitet qazanır. Əgər hansı şəxslərə çox virus keçərsə, immuniteti nə qədər güclü olsa da, yenə xəstələnib ciddi fəsadlarla qarşı-qarşıya qala bilər.

Bütün bunlar həm də onu deməyə ehtimal yaradır ki, qaydalara düzgün riayət olunmazsa, yoluxanların sayı artar, sərtləşdirmə tədbirləri yenidən gündəmə gətirilə bilər. Odur ki, peyvəndləşmədən keçmək, qapalı məkanlarda maskanın taxılmasına və sosial məsafənin təmin edilməsinə nəzarət zəruridir.

Bakı şəhərindəki Atletlər kəndində COVID-19 xəstəliyinə qarşı mübarizəyə cəlb edilmiş həkim Şahin Məmmədovun fikrincə, SMS icazənin ləğvi heç kimdə arxayınlıq yaratmamalıdır: "Yoluxmaların və ölüm sayının azalması insanlarda sevinc hissi ilə yanaşı, məsuliyyət hissini də artırmalıdır. Onların bir-birilə təmasları məhdudlaşdırılmalıdır. Yaşından və cinsindən asılı olmayaraq, vətəndaşlarımız başa düşməlidirlər ki, yumşaldılmış karantin rejimi qaydalarına əməl etmək hər birimiz üçün vacibdir".

Xatırladaq ki, Azərbaycanda xüsusi karantin rejiminin müddəti 2021-ci il 1 aprel saat 06:00-dək uzadılıb. Bir daha vətəndaşlarımızı COVID-19 virusu ilə mübarizədə mövcud karantin tələblərinə və həkimlərin məsləhətlərinə ciddi riayət etməyə, tibbi maskalardan və digər zəruri profilaktik vasitələrdən istifadəyə, habelə ictimai yerlərdə kənar şəxslərlə minimum kontaktda olmağa çağırırıq.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***




# Ermənistan silahlı qüvvələrinin minaladığı ərazilər Dövlət Sərhəd Xidmətinin mühəndis-istehkam bölmələri tərəfindən təmizlənilir

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbə sayəsində dövlətimizin ərazi bütövlüyü təmin edildikdən, o cümlədən ölkəmizin İran İslam Respublikası ilə dövlət sərhədi işğaldan azad olunduqdan sonra bu ərazilərdə zəruri sərhəd mühafizə infrastrukturunun bərpası tədbirləri davam etdirilir.

